

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Mehriban Əliyeva Azərbaycanın Müstəqilliyinin Bərpası Günü ilə bağlı paylaşım edib



2

SƏS

№ 193 (7118)

19 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Bir qrup energetik təltif olundu



2

# 44 günlük müharibə - hər gün Qələbə







7

## Milli Məclis Prezident və Birinci xanıma təbrik məktubu ünvanlayıb



3

## Prezident İlham Əliyevin siyasəti Azərbaycanı zirvələrə yüksəldib - MM SƏDRİ



3

## Türkiyə Prezidenti xalqımızı təbrik edib



2

## İstanbulda XİN rəhbərlərinin "3+3" formatında görüşündə birgə Bəyanat qəbul edilib



2

## Zəngilan Şəhəri Günü – Zəfərimizin təcəssümü




5



# Bir qrup energetik təltif olundu

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan energetiklərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, energetika sahəsinin inkişafında səmərəli fəaliyyətinə görə bir qrup şəxslər təltif ediliblər.

# Mehriban Əliyeva Azərbaycanın Müstəqilliyinin Bərpası Günü ilə bağlı paylaşım edib






Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 18 oktyabr Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib.

# XİN rəhbərləri qlobal təhlükəsizlik problemlərini müzakirə ediblər




***Oktyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İstanbul şəhərinə işgüzar səfəri çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşüb.***

SİA-nın AZƏRTAC-dan əldə etdiyi məlumata görə, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə qlobal təhlükəsizlik problemləri müzakirə olunub.

Bölgədə və dünyada sürətlə dəyişən təhlükəsizlik vəziyyətinin fonunda "3+3" formatı kimi məşvərət mexanizmlərinin əhəmiyyətinin daha da artdığı, bölgəmiz üçün ortaq təhdidlərlə mübarizədə əməkdaşlığın vacibliyi qeyd olunub. Bu istiqamətdə Azərbaycan-Türkiyə müttəfiqliyinin, regional və beynəlxalq platformalar çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin əhəmiyyəti diqqətə çatdırılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov sülh prosesinin qarşısında duran çağırışların hələ də qalmaqda olduğunu bildirib. Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının davam etdirilməsinin, habelə rəsmi İrəvan tərəfindən bu istiqamətdə sistematik işlərin görülməsi yerinə problemin gözardı edilməsinin narahatlıq mənbəyi olaraq qaldığı diqqətə çatdırılıb.

Ceyhun Bayramov, həmçinin həmkarını BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz, görülən hazırlıq işləri barədə məlumatlandırıb.

Türkiyənin qardaş Azərbaycanın bölgədəki sülh və quruculuq səylərini hər zaman dəstəklədiyi, habelə prosesin tezliklə yekunlaşmasına dair ümidvarlıq ifadə olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyə Prezidenti xalqımızı təbrik edib



SİA xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğan bununla bağlı "X" sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Dostumuz, qardaşımız, "iki dövlət, bir millət" anlayışına sahib olduğumuz Azərbaycanın 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününü təbrik edirəm. Prezident və dəyərli qardaşım İlham Əliyevə, bütün Azərbaycan xalqına salamlarımı və sevgimi çatdırıram".

# İstanbulda XİN rəhbərlərinin "3+3" formatında görüşündə birgə Bəyanat qəbul edilib

"Oktyabrın 18-də İstanbulda Türkiyə Xarici İşlər Nazirliyinin ev sahibliyi, Azərbaycan, Rusiya, Ermənistan və İranın XİN rəhbərlərinin iştirakı ilə üçüncü toplantısı keçirilən Cənubi Qafqaz Regional Əməkdaşlıq Platformasının (3+3) başlıca məqsədi regional mülkiyyət anlayışı ilə Cənubi Qafqazda qarşılıqlı fayda prinsipi əsasında çoxtərəfli əməkdaşlığın inkişafıdır".

AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyənin Xarici İşlər Nazirliyinin toplantı ilə bağlı açıqlamasında bildirilib.

Qeyd edilib ki, görüşdə Cənubi Qafqazda daimi sülh və sabitliyin bərqərar olması, həmçinin regional inkişaf məsələləri müzakirə olunub, konkret layihələr vasitəsilə regional əməkdaşlığın dərinləşdirilməsi mövzusunda fikir mübadiləsi aparılıb.



Toplantının sonunda iştirakçı tərəflərin birgə Bəyanatı qəbul edilib. Bəyanatda regional iqtisadi əməkdaşlığın ölkələrarası etimadın bərqərar olmasında və rifahın, sabitliyin artırılmasında oynadığı rol vurğulanıb. Nəqliyyat, kommunikasiya, ticarət, enerji, investisiya və inteqrasiya sahələrində əməkdaşlıq imkanlarını dəyərləndirmək barədə razılığa gəlinib.

Bəyanatda bölgədə sülhün və sabitliyin dialoq yolu ilə təmin edilməsinin əhəmiyyəti də vurğulanıb.

Türkiyə Cənubi Qafqazda daimi sülhün təmin edilməsi və əməkdaşlığın gücləndirilməsi məqsədilə region ölkələri ilə işləməyə davam edəcək.

XİN-in açıqlamasında bildirilib ki, toplantıdan sonra qonaq nazirlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul ediliblər.

# Milli Məclis Prezident və Birinci xanıma təbrik məktubu ünvanlayıb



***Milli Məclis 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibəti ilə Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlayıb.***

Azertag xəbər verir ki, bu təkliflə spiker Sahibə Qafarova parlamentin bugünkü plenar iclasında çıxış edib.O bildirib ki, bu gün Azərbaycanda Müstəqilliyin Bərpası Günüdür: "Təklif edirəm ki, bu münasibətlə dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya Milli Məclis adından təbrik məktubu göndərilsin".Deputatlar sədrin təklifini alqışlarla qarşılayıb.

# Prezident İlham Əliyevin siyasəti Azərbaycanı zirvələrə yüksəldib - MM SƏDRİ



Azərbaycan Prezidenti İlham Əliyevin apardığı daxili və xarici siyasət ölkəni zirvələrə yüksəldib. SİA xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 18-də keçirilən parlamentin plenar iclasında çıxışı zamanı deyib.Onun sözlərinə görə, dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın əzəli, tarixi torpaqlarının Ermənistanın 30 illik işğalından qurtarılması, ərazi bütövlüyü və suverenliyin bərpa olunması nəinki ölkə, eləcə də bütün dünya üçün tarixi əhəmiyyətli hadisə olub:"Azərbaycan Cənubi Qafqaz bölgəsinin liderinə, qlobal geosiyasətdə söz sahibi olan dövlətə çevrilib".

# Türkiyə XİN Azərbaycan xalqını təbrik edib




Türkiyə Xarici İşlər Nazirliyi Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə bağlı paylaşım edib. SİA xəbər verir ki, bu barədə qurumun "X" hesabında məlumat paylaşılıb."Dost və qardaş Azərbaycanın Müstəqilliyinin Bərpası Günü mübarək olsun!", - paylaşımda bildirilib.

# Azərbaycana qarşı xaricdən təhdidlər var - Əli Əhmədov

***Bu gün Azərbaycana qarşı xaricdən təhdidlər var. SİA xəbər verir ki, bunu Milli Məclis sədrinin I müavini Əli Əhmədov parlamentin bu gün keçirilən plenar iclasında deyib.***



"Ölkəmizə qarşı belə təhdidlərin olması Azərbaycan cəmiyyətini daha da birləşdirir və onun təhdidlərə qarşı immunitetini daha da möhkəmləndirir. Azərbaycan xalqı bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir. Azərbaycan sülh proqramını açıq şəkildə bəyan edib. Kimlərinsə xoşuna gəlməsindən asılı olmayaraq, sülh siyasətini həyata keçirməkdə davam edir",-deyə o vurğulayıb.

# Zibillərin daşınması səlahiyyəti bələdiyyələrə verilməlidir

***Zibillərin daşınması bələdiyyələrin səlahiyyətlərinə aid deyil. SİA xəbər verir ki, bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov parlamentin oktyabrın 18-də keçirilən plenar iclasında çıxışı zamanı deyib.***



SİYAVUŞ NOVRUZOV

Komitə sədri bildirib ki, əslində, bu iş bələdiyyələrə verilməlidir:"Amma bu gün həmin işləri hansısa şirkətlər tərəfindən icra olunur. Bir çox hallarda şahidi oluram ki, vətəndaşlar zibillərin daşınması üçün pul verdiklərini bildirir, amma atılmayanda, bələdiyyələri günahkar çıxarırlar. Buradan bir daha təkrar edirəm ki, bu işə bələdiyyə baxmır".

# XİN Azərbaycan xalqını təbrik etdi



Bütöv və suveren Azərbaycanımıza şanlı tarix, əbədi və dönməz olan müstəqillik yolu arzu edirik. SİA xəbər verir ki, bu fikir Azərbaycanın Xarici İşlər Nazirliyinin Azərbaycanın Müstəqilliyini Bərpası Günü münasibətilə "X"dəki hesabında yer alıb."Azərbaycan xalqının öz müstəqilliyini bərpa etdiyi və dövlətçilik ənənələrimizin dirçəldiyi 18 Oktyabr-Müstəqilliyin Bərpası Günü münasibətilə bütün həmvətənlərimizi ürəkdən təbrik edir, bütöv və suveren Azərbaycanımıza hər zaman şanlı tarix, əbədi və dönməz olan müstəqillik yolu arzu edirik", - paylaşımda qeyd edilir.

# Audiovizual Şura "SƏSTV" MMC-yə lisenziya verdi

Oktyabrın 18-də Azərbaycan Respublikası Audiovizual Şurasının növbəti iclası keçirilib. Bu barədə SİA-ya Audiovizual Şuradan məlumat verilib.

Bildirilib ki, iclasda audiovizual media fəaliyyəti üçün lisenziya verilməsi ilə bağlı bir sıra müraciətlərə baxılıb.

Audiovizual Şuranın müvafiq qərarları ilə "ABC-Telecom" MMC-ə universal platforma operatoru və sifarişli yayım xidməti provayderi (xidmət adı: "Kontakt TV") lisenziyaları verilib. Bundan başqa, "SƏSTV" MMC-yə (televiziya redaksiyasının adı: "Səs TV") və "Biznes TV" MMC-ə (televiziya redaksiyasının adı: "Biznes TV") peyk yayımı həyata keçirməyən platforma yayımçısı lisenziyalarının verilməsi barədə müvafiq qərarlar qəbul olunub.

SƏSTV

Yeni lisenziyaların verilməsindən sonra Azərbaycan Respublikasında audiovizual media subyektlərinin sayı 95-ə (135 lisenziya fəaliyyəti ilə) çatmışdır. Hazırda Audiovizual Şuradan lisenziya alaraq fəaliyyət göstərən 42 televiziya və 21 radio kanalı, 5 sifarişli yayım xidməti provayderi, 2 multipleks operatoru, 53 platforma operatoru mövcuddur.

# Müstəqilliyimizin bərpası ən böyük nailiyyətimizdir!

***Ərazi bütövlüyünü və suverenliyini təmin etmiş bütöv Azərbaycan Qalib və Zəfər qazanmış bir dövlət olaraq müstəqilliyinin bərpa edilməsinin 33-cü ildönümünü qeyd edir. 33 il əvvəl tarixin bu günündə Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü xalqımızın tarixinə həkk olundu.***

Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə müstəqilliyin bərpası günü kimi qeyd olunur. 15 oktyabr 2021-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü kimi ölkəmizdə qeyd olunur.



### "İCTİMAİ-SİYASİ SABİTLİK, DÖVLƏT İNTİZAMI TƏMİN EDİLDİ"

Müstəqilliyinin ilk illərində özünün ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir, bizim böyük bayramımızdır", - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyinin bərpasına Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra nail ola bildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən Ümummilli Lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı.

XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışı ölkəmizin tarixində həlledici məqam oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı: "Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı".

### "AZƏRBAYCAN XALQI 2003-CÜ İLDƏ BİR DAHA MÜDRİKLİK GÖSTƏRƏRƏK, MƏHZ ULU ÖNDƏRİN ŞƏXSİYYƏTİNƏ OLAN HÖRMƏTİ İFADƏ EDƏRƏK HEYDƏR ƏLİYEV SİYASƏTİNƏ SƏS VERDİ"

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi. 1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində, ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi.

### "AZƏRBAYCAN MƏQSƏDLƏRİNƏ DOĞRU DAİM İNAMLA İRƏLİLƏMİŞ, ÖZ HƏDƏFLƏRİNDƏN YAYINMAMIŞDIR"

Bu gün Azərbaycan yeni bir inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir. Ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır... Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkününün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır."

### AZƏRBAYCAN DİPLOMATİYASININ UĞURLARI

Dövlət başçısının dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti Azərbaycanı inkişaf etmiş demokratik ölkələr sırasına çıxarıb. Demokratik və müstəqil dövlət kimi kimi tanınan Azərbaycan çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda ölkə həqiqətlərini dünyaya çatdırır, Azərbaycanın mənafelərini uğurla müdafiə edir. Ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var".

Vurğulamaq yerinə düşər ki, Azərbaycan diplomatiyasının uğurları yalnız BMT ilə deyil, digər nüfuzlu təşkilatlarla da sıx əlaqə yaratmasına imkan verib. Bu sırada Azərbaycanın İslam Konfransı Təşkilatı, GUAM və digər tanınmış beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi xüsusi qeyd olunmalıdır.

Bu gün Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün nadir əməkdaşlıq məkanına çevrilib. Azərbaycan Respublikasının xarici ölkələrdə səfirlikləri, beynəlxalq təşkilat yanında daimi nümayəndəlikləri, baş konsulluqları, təmsilçilik ofisləri və fəxri konsulluqları fəaliyyət göstərir. Respublikamızda isə dünya dövlətlərini səfirlikləri, baş konsulluqları, fəxri konsulluqları və beynəlxalq təşkilatların nümayəndəliyi vardır. Dövlət başçısının vurğuladığı kimi, "Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var".

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir.

### 33 İLLİK TARİXİN GERÇƏKLİKLƏRİ

Bütün bu və ya digər amillər 33 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər tarixi gerçəklikləridir. Bu gün müstəqillik tariximizin ən şərəfli, qürurlu zamanı yaşayırıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək tarix yazdıq. Əzəli torpaqlarımızın düşmən işğalından azad olunması üçün yol göldik. Güclü Azərbaycan ordusu cəbhədə öz sözünü deyərək, tariximizə Zəfər yazdı. "Xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. İllərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yaşadıqları yurd yerlərinə mərhələli olaraq dönürlər.

Bu gün Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 33 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra Zəfər qazandığımız tarixi qələbədən ötən illərdə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş qalib xalq kimi qeyd edir.

***Nəzakət ƏLƏDDİNQIZI***




# Zəngilan Şəhəri Günü – Zəfərimizin təcəssümü

***Son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən dörd il ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır, müzakirələr aparılır.***

Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri hələ uzun müddət təhlil ediləcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü güclü daxili və xarici siyasət, Prezident kimi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni şərtləndirən başlıca amillər sırasındadır.




44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunan ərazilərimizdə bu gün bayram ovqatı, sevinc hökm sürür. Vətən müharibəsinin 24-cü günü - 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi həkk olunub. Dövlətimizin başçısı 2023-cü il iyulun 31-də imzaladığı müvafiq Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 20 oktyabr tarixi Zəngilan Şəhəri Günü kimi qeyd olunur. Sərəncam işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

## "ZƏNGƏZURUN ŞƏRQİNDƏ DƏ, QƏRBİNDƏ DƏ AZƏRBAYCAN XALQI ƏSRLƏR BOYU YAŞAMIŞDIR"

44 günlük Vətən müharibəsində Cəbrayıl və Füzulidən sonra döyüş meydanında azad olunan 3-cü şəhər Zəngilan oldu. 29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayon işğal olunmazdan qabaq erməni qüvvələri tərəfindən tam olaraq mühasirəyə alınmış və on minlərlə insan qırılmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Hər tərəfdən mühasirədə qalan sakinlər Araz çayını keçərək, xilas olmuşdular. Xatırladaq ki, Zəngilan inzibati rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Rayonun ərazisi müxtəlif tarixi dövrlərdə ayrı-ayrı inzibati ərazi bölgülərinə məruz qalmışdır. Rusiyanın işğalı zamanı 1828-ci ilə qədər bölgənin ərazisinin Bəsitçaydan qərbə tərəf hissəsi Naxçıvan, şərqə tərəf hissəsi isə Qarabağ xanlığının tərkibinə daxil olur. XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra yeni ərazi-inzibati bölgüsü aparılır. 1868-ci ildə Yelizavetpol quberniyası yaradılır. Onun tərkibində Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları yaradılır. Yeni bölgüyə əsasən, Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilir.

"Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan bir neçə ay sonra Zəngəzur da bizim əlimizdən alındı. Bu tarixi də hər kəs bilməlidir, 1920-ci ilin noyabrında sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana verildi. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi", - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirib.

Son iki yüz ildə vahid təbii sərhəddə malik olmayan Zəngilan 1930-cu ilin avqustunda müstəqil rayon kimi formalaşır və dəqiq müəyyən olunmuş bir ərazisi olur. Zəngilan rayonunda bir şəhər, 5 qəsəbə (Ağoyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri) və 79 kənd olmuşdur. Burada müxtəlif dövrlərə aid daş abidələri vardır. Hər daşında bir tarix yaşayır. Hər bir ərazisi Azərbaycan tarixindən xəbər verir. Belə zəngin tarixi ilə tanınan Zəngilanın artıq müharibənin 24-cü günündə bir neçə kəndi və Zəngilan şəhəri artıq işğaldan azad olundu.

## YAŞIL ENERJİ ZONASININ YARADILMASI

Əlbəttə ki, işğaldan azad olunan ərazilərimizdə infrastruktur layihələr, yeni yolların çəkilişi, yaşayış yerlərinin təməlinin qoyulması, iaşə müəssisələrinin açılışı və s. plnlı şəkildə layihələr əsasında həyatı keçirilir. Məqsəd insanların rahatlığının və firavanlığının təminatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının açılışlarını etməsi ərazilərdə görülən işlərin planlı şəkildə həyata keçirilməsinə söykənir. İşğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat olan "Zəngilan" Su Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su elektrik stansiyası olan Zəngilan silsiləsindən "Cahangirbəyli" SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. "Şayıflı" və "Zəngilan" SES-lər açılışa hazır vəziyyətə gətirilib, "Sarıqışlaq" SES-də isə işlər başa çatdırılıb.

Araz çayının sol qolu olan Oxçuçay üzərində inşa edilən SES-ləri su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Hər birinin gücü 10,5 meqavat olmaqla ümumi gücü 21 meqavat olan "Zəngilan" və "Şayıflı" SES-lər üçün maşın zalları tikilib. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Zəngilan" və "Şayıflı" SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsi təmin olunub. Hər iki SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə 60 milyon kilovat-saat yaşıl enerji istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının ($CO_2$) həcmi 28 min ton azalacaq.

Zəngilanda görülən işlər bunula bitmir. Məlumdur ki, Ermənistan 30 illik işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədib. Ermənilər şəhər və rayonlarımızda yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətlərimizi talan edib, bu ərazilərdəki dini, tarixi, mədəniyyət abidələrimizi vandalizm aktlarına məruz qoyub. O cümlədən Zəngilan rayonundakı tarixi, dini, mədəniyyət abidələrimiz erməni təcavüzünün qurbanları sırasındadır. Burada da müqəddəs ocaqlarımız ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılan məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib. İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Xatırladaq ki, Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra - 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC-nin dəstəyi ilə həyata keçirib. Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb. İşğal dövründə dağıdılmış tarixi Zəngilan şəhər məscidinin ərazisində isə açıq səma altında sərgi yaradılıb. Burada işğalın ən ağır fəsadlarından biri kimi bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsinə dair faktlar yer alıb. Eyni zamanda, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı aşkar edilib.

## "BİZ TAM MÜSTƏQİLİK, HEÇ KİMDƏN ASILI DEYİLİK, ÖZ HƏYATIMIZI ÖZÜMÜZ QURURUQ"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlinin qoyulması bu ərazidə də aparılan abadlıq-quruculuq işlərinin davamlığına söykənir. Layihə üzrə şəhərdaxili yolların ümumi uzunluğu 31 kilometrdir. Layihənin birinci mərhələsində ümumilikdə 17,14 kilometr uzunluğunda yollar salınacaq. İki və dörd hərəkət zolaqlı bu yolların eni 18-34 metr olacaq. Yolboyu velosiped və piyada zolaqları yaradılacaq, yaşıllıqlar salınacaq. Horadiz–Zəngilan avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biridir. Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsi ötən əsrin 80-ci illərində inşa edilib və otuzillik işğal dövründə tamamilə sıradan çıxarılaraq yararsız vəziyyətə salınıb. Uzunluğu 61 kilometr olan Horadiz–Zəngilan avtomobil yolunun əsaslı təmiri dövlətimizin başçısının müvafiq Sərəncamına əsasən həyata keçirilib. Təmir-tikinti işləri Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsində aparılıb.

Göründüyü kimi, işğal altından azad olunan ərazilərimizdə, eləcə də Zəngilanda abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Bu gün isə əzəli sakinlərin səsi-sədası, toy-büsat çalğısı Füzulidən, Laçından, Şuşadan eşidilir.

Qarabağ və Şərqi Zəngəzurumuz yenidən qurulur.

Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. "Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir. Biz iqtisadi cəhətdən müstəqilik. Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərib. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq".

***N. Bayramova***

# YAP-ın yaranması ilə xalqın sabaha olan inamı özünə qayıtdı

***Bugünkü reallıq ondan ibarətdir ki, Azərbaycan dünyanın ən inkişaf edən, demokratik dövlətlərindəndir. Təbii ölkəmizin bütün sahələrdə inkişafa, tərəqqiyə nail olunmasının əsası Dahi Öndərimiz Heydər Əliyevin birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə qoyulub. 1969-cu il iyulun 14-də birinci dəfə Azərbaycan Respublikasının rəhbəri seçilmək Dahi Öndərimiz Heydər Əliyev ölkəmizi sosial, iqtisadi və digər sahələrdə geridə qalan respublikadan inkişaf edən məmləkətə çevirdi. Təkcə bir faktı vurğulamaq lazımdır ki, 1969-1982-ci illərdə milli gəlir 2,6, sənaye məhsulu 2,7, kənd təsərrüfatı 2,3 dəfə artdı, 249 yeni iri sənaye müəssisəsi yaradıldı.***




*Ulu Öndər Heydər Əliyevin ziyalılara cavab məktubunda qeyd olunur: "16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum"*

Ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini iki dəfə üstələdi. Həmin dövrdə 813 min yeni iş yeri açıldı, əhalinin güzəranı qat-qat yaxşılaşdı. Respublikamızın elmi-texniki potensialı dəfələrlə artdı, 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Ötən əsrin 80-ci illərinin əvvəllərində ən nüfuzlu ali məktəblərə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi. Hər il 800-1000 azərbaycanlı gənc isə ittifaqın nüfuzlu hərbi məktəblərində hərb sənətinin sirlərinə yiyələnirdi. Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamız üçün ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. Ümummilli Lider Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra diqqət göstərdiyi, görüşlərində iştirak etdiyi əsas insanlar sırasında Onun dəstəyi ilə ittifaqın müxtəlif ali məktəblərinə təhsil almağa göndərilən məzunlar olub. Ulu Öndərimizin belə bir görüş 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla olmuşdur. Həmin görüşdə çıxış edən Dahi Öndərimiz Heydər Əliyev demişdir: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən, sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaq. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaq və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

### Xalqı bəlalardan Ulu Öndərimiz çıxardı

Ulu Öndər Heydər Əliyevin qurub, yaratdıqlarını sonradan səriştəsiz, bacarıqsız insanlar dağıtdılar. Hətta müstəqilliyimizin ilkin dövründə yaşanan faciəvi proseslər dövlətçiliyimizi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra hakimiyyət uğurunda aparılan savaş ölkəmizdəki ağır durumu daha da gərginləşdirdi. O dövrdə müstəqillik yollarında ilk addımlarını atan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. O illəri ölkənin tarixində ən ağır dövr hesab etmək olar. Çünki Azərbaycanın iqtisadiyyatı dağıdılmış, dövlətlərarası münasibətləri tamam pozulmuşdu, insanların sabaha olan inamları tamamilə sarsılmışdı. Azərbaycan bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə dayanmışdı. Vəziyyətin idarə olunmaz durumda olmasından istifadə edən erməni hərbi birləşmələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə, AXC-Müsavat iqtidarı narazı xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. Gəncədə baş verən qardaş qırğını ağır vəziyyətin kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütləri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq üçün ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı "Səs" qəzeti vasitəsi ilə Ulu Öndərimizə müraciət ünvanladılar.

### "Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur"

Ziyalıların mövcud reallıqdan çıxış edərək Dahi Öndərimizə kömək üçün müraciət etməsi xalqın sabaha olan ümidlərini artırdı. Daim xalqın yanında olan və dövlətin inkişafı üçün bütün bilik və bacarığını əsirgəməyən Ulu Öndərimiz Heydər Əliyev ziyalıların müraciətinə müsbət cavab verdi və Yeni Azərbaycan Partiyasının yaradılması və Onun sədri olmasına razılıq verdi. Bu barədə Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda qeyd edir ki, 16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum: " Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatlığı haqlıdır və təqdirəlayiqdir".

Dahi Öndərimiz Heydər Əliyev cavab məktubunda onu da bildirir ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur: " Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". Nəticə etibarilə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır. Ulu Öndərin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas oldu. Bütün sahələrdə, o cümlədən iqtisadi, siyasi uğurlara qazanıldı, ordu quruculuğunda geniş və uğurlu nailiyyətlə əldə olundu. Məhz ordu quruculuğunda qazanılan nailiyyətlərin nəticəsi olaraq Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Məhz bu cür hərbi qələbələrdən qorxuya düşən erməni faşist birlikləri himayədarlarının yardımı ilə cəbhədə atəşkəsə nail oldu. Atəşkəsin əldə olunması ilə Azərbaycan daha geniş formada ordu quruculuğu həyata keçirdi və nəticədə ölkəmizin Silahlı Qüvvələri regionun ən güclü ordusuna çevrildi.

### Ulu Öndərimiz Heydər Əliyev: "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun"

Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də, dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun".

Bəli, Ulu Öndərimiz Heydər Əliyevi həyata keçirdiyi müdrik siyasətə Azərbaycan qısa müddətdə əksər problemlərini aradan qaldırdı və güclü və qüdrətli Azərbaycan çevrildi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə neft strategiyasının əsası qoyuldu. Nəticədə neft gəlirlərində əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşması ilə yanaşı ölkədə geniş və əhatəli quruculuq abadlıq işlərinin aparılmasına təkan oldu. Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı.

Bu gün dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı başında Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, partiyamızın Sədri, Fateh Sərkərdə, Prezidentimiz İlham Əliyev durur. Prezidentimiz İlham Əliyevin apardığı daxili və xarici siyasət bir daha sübut edir ki, ulu öndərin qətiyyətli səyləri nəticəsində müstəqilliyi tam təmin olunan dövlətimiz durmadan inkişaf edir, çiçəklənir və qüdrətli dövlətə çevrilir.

Hazırda Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və Prezidentimiz İlham Əliyevin çox möhtəşəm siyasəti nəticəsində Azərbaycan günü-gündən inkişaf edir və dünyanın ən aparıcı, inkişaf edən dövlətlərdən birinə çevrilir. 44 günlük Vətən Müharibəsində əldə olunan parlaq hərbi, siyasi, diplomatik qələbə Azərbaycanın gücünə yeni güc qatdı. Torpaqlarını erməni işğalından azad edib, ərazi bütövlüyünü bərpa etməklə Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, öz gücünə hər bir ağrılı problemi həll etməyə qadirdir.

***İLHAM ƏLİYEV***





# 44 günlük müharibə - hər gün Qələbə

*“Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!" Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 oktyabr 2020-ci il tarixində özünün rəsmi "Twitter" hesabında qeyd etmişdir.*

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində artıq həmin günə qədər bir neçə işğal altında olan kənd və qəsəbələrimiz, şəhərlərimiz azad olunmuşdur. Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan əks-hücum əməliyyatları öz nəticəsini verməkdə idi. Əlbəttə ki, 27 sentyabrdan oktyabrın 19-na kimi Ermənistanın itkilərinin sayı-hesabı yox idi. Düşmənin maddi itkisinin 1 milyard dollardan çox olması rəsmi mənbələrdə qeyd olunsa da real itkilər rəsmi elan edilən rəqəmlərdən dəfələrlə artıq idi. İki dəfə humanitar atəşkəsin elan edilməsinə baxmayaraq, Ermənistan atəşkəsin şərtlərini kobud şəkildə pozduğu üçün layiqli cavabını alırdı. ”Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik. Mən bu rəqəmləri göstərmişəm. 230-dan çox tank əsasən pilotsuz uçuş aparatları vasitəsilə, habelə tank əleyhinə müasir mübarizə sistemləri – bunu gizlətmirəm, özü tuşlanan ”Spike” raketləri vasitəsilə məhv edilib. Biz dünənə qədər 36 tankı qənimət götürmüşük, çoxlu sayda digər texnikanı, o cümlədən ən müasir ”S-300” zenit-raket komplekslərini, bir neçə işəsalma qurğusunu, 40-a yaxın OSA zenit-raket kompleksi qurğusunu, TOP qurğularını məhv etmişik”, - deyə Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində bildirmişdi.

Vətən müharibəsində Azərbaycan tarixi günlərini yaşadı. Azərbaycan Ordusunun 2020–ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalda olan şəhər, qəsəbə və kəndlərimiz azad edildi. Tarixin yaşanılacaq zamanlarında Zəfər tariximiz şərəf tarixi olaraq vərəqlənəcəkdir. Müharibənin qızğın getdiyi günlərdə demək olar ki, hər gün kənd, qəsəbə və şəhərlərin işğaldan azad olunması xəbərini eşidirdik. ”27 ildən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik” – deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir. Azərbaycanın İkinci Qarabağ, 44 günlük Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsirlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Vətən müharibəsində Azərbaycan xalqı ilə yanaşı, bütün dünya ermənilərin nə qədər vandal, vəhşi xislətə malik olduqlarının bir daha şahidi oldu. Döyüş meydanında ağır məğlubiyyətlərlə üzləşən Ermənistan ordumuzun hər yeni uğuruna yalnız bir o qədər aciz, azğın və namərd şəkildə reaksiya verirdi. Ermənistan ordusu dəfələrlə döyüş meydanından uzaq olan, hərbi obyektlərin olmadığı və mülki vətəndaşların məskunlaşdığı Azərbaycan torpaqlarını hədəf alaraq raket və mərmilər vasitəsilə kütləvi itkilərə səbəb olan terror aktları törətdi. Yaşanan dəhşətli hadisələr bütün dünyanı sarsıtsa da, xalqımız döyüş ruhunu, birliyini və iradəsini itirməyərək daha da əzmlə və mərdcəsinə Ali Baş Komandanı və ordumuzu dəstəkləməyə davam etdi. Həyatını itirmiş mülki həmvətənlərimizin qisasını isə rəşadətli ordumuz döyüş meydanında müvəffəqiyyətlə aldı.

## “BİZ ÖZ TƏRƏFDAŞLARIMIZLA ƏLAQƏLƏR ÇƏRÇİVƏSİNDƏ ÜZƏRİMİZƏ GÖTÜRDÜYÜMÜZ ÖHDƏLİKLƏRƏ SADİQİK”

Baş verənlərin fonunda Ermənistan hər gün sarsıdıcı zərbələrin hədəfində olur, geri çəkilməyə başlayır, maddi-texniki bazası durmadan zəifləyir və şəxsi heyəti tamamilə zərərsizləşdirilirdi. ”Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində biz həmişə həm beynəlxalq hüquqa, həm də münaqişənin dinc yolla həllinə sadiqliyimizə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanmışıq, həmin öhdəlikləri yerinə yetirməyə çalışırdıq və buna hazırlaşırdıq”, - deyə Prezident İlham Əliyev müsahibəsində atəşkəslə bağlı suala cavabında bildirmişdi. Ermənistan atəşkəs rejimini kobud şəkildə pozduğunu diqqətə çatdıran dövlətimizin başçısı demişdir ki, danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi: ”Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni



Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi”. Azərbaycan Prezidenti qeyd edib ki, bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girovların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər. ”Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pislənməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər”, - deyə Prezident İlham Əliyev vurğulamışdı.

## “BİZ DÖYÜŞ MEYDANINDA TAM ÜSTÜNLÜYÜ ƏLDƏ ETMİŞİK”

21 oktyabr 2020-ci il. Vətən müharibəsinin tarixi günlərini yaşayırdıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti və onun mükəmməl rəhbərliyi ilə irəliləyən müzəffər Ordumuz hər gün irəliyə doğru gedərək, düşməndən intiqamını alaraq, yeni qələbələrimizi tariximizə həkk edirdi. Azərbaycan Prezidenti demək olar ki, hər gün ”Twitter” səhifəsindən xalqa verdiyi müjdələr, eləcə də tarixi günlərdə xalqa müraciəti tezliklə zəfər qazanacağımızdan xəbər idi. ”Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”. Bu sözlər 21 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi ”Twitter” səhifəsində yer almışdır. Elə həmin gün Cənab Prezident ”Twitter” səhifəsində ”Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”-deyə bildirmişdir. Hər gün kənd və qəsəbələrimizin, şəhərlərimizin işğaldan azad olunması xəbəri insanlarda inam hissini daha da yüksəldirdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 27-dən 21 oktyabr tarixinədək Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulduğunu qeyd edərək demişdir: ”...Biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Bu, yəni sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır?”.

Prezident İlham Əliyev müharibənin getdiyi zaman çərçivəsində dəfələrlə beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini ifşa edərək, təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan etmiş oldu.

## ERMƏNİSTANIN MƏĞLUBİYYƏTİNİN AÇIQ ETİRAFI

Əlbəttə ki, müharibənin gedişi deməyə əsas verirdi ki, düşmən döyüş meydanında çox böyük itkilər verərək uduzmuş dövlətə çevrilirdi. Vətən müharibəsi Azərbaycanın böyük Zəfəri ilə bitdi. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfə idi ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. 44 günlük müharibə Azərbaycan xalqının, onun Liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbir göstərən xalqımız nəhayət, qələbəyə qovuşdu. 2020-ci ilin noyabrın 10-u ölkəmiz üçün tarixi bir gün oldu. Rəşadətli Azərbaycan Ordusunun döyüşlərdə əldə etdiyi zəfər Ermənistanı masa arxasında oturmağa məcbur etdi. Nəhayət, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu sənəd Ermənistanın məğlubiyyətinin açıq etirafı olaraq yaddaşlara həkk olundu. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi.

Əlbəttə, ölkəmizin bu tarixi nailiyyəti Zəfər tariximiz təsadüfi xarakter daşımır və ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliğinin nəticəsidir. O da xüsusilə vurğulanmalıdır ki, Azərbaycanın bu qürurverici və əzəmətli qələbəsinin müəllifi xalqımızın Ulu Öndəri Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevdir.

***Zümrüd BAYRAMOVA***

# Bir gündə iki tarix, üç məqam...




*Nurlan Qələndərli*
*YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

***Müstəqillik hər bir xalqın milli sərvətidir.Müasir dövrdə isə müstəqillik anlayışı fərqli məzmun daşıyır. Burada əsas məqam formal müstəqilliyə malik olmaq deyil, müstəqil siyasət həyata keçirməkdir.***

18 oktyabr 1991-ci il - Azərbaycanın müstəqilliyinin bərpa edildiyi tarix.Çoxəsrlik tariximizin ilk dövlət müstəqilliyi dövrü cəmi 23 ayı əhatə edir. 71 il sonra müstəqilliyi bərpa etsək də, 24 ay yalnız de-yure müstəqil olduq. Ta ki 1993-cü il oktyabr ayında Heydər Əliyevin hakimiyyətə gəlişinə qədər. Məhz bundan sonra de-fakto müstəqilliyə nail ola bildik. Ulu Öndərin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində real müstəqil dövlətlər sırasına qoşula, milli maraqların etibarlı müdafiə mexanizmini yarada bildi.Və 29 il sonra müstəqilliyin bərpasının növbəti ildönümündə - 18 oktyabr 2020-ci ildə Heydər Əliyevin siyasi varisi olan Prezident İlham Əliyev 44 günlük Zəfər yürüşünün 22-ci günündə xalqımıza daha bir qələbə müjdəsi verdi: "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdı".Xudafərin qəsəbəsinin azad edilməsi - Azərbaycan əsgərinin Xudafərin körpüsünə çıxaraq üçrəngli bayrağımızı dalğalandırması ilə bir-birini tamamlayan iki tarix siyasi təqvimə yazıldı.Nəhayət, 44 günlük Vətən müharibəsinin şanlı Qələbə ilə başa çatması və 23 saatlıq antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün tam bərpası - Şuşada son nöqtənin, Xankəndində isə Zəfər nidasının qoyulması müstəqillik zirvəsində suverenliyin bərqərar olunması ilə əlamətdardır.

# Əli Əhmədov seçiciləri ilə görüşüb



Oktyabrın 16-da Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov seçiciləri ilə görüşüb.Əli Əhmədov seçicilərin müraciətlərini dinləyib, onların həll olunması istiqamətində müvafiq işlərin görüləcəyini diqqətə çatdırıb.

Təqvimin daha bir oktyabrı - 2023-cü il 15 oktyabr tarixini göstərdiyi bir vaxtda 23 ay davam etmiş ilk milli istiqlal idealımızı məhz 2023-cü ildə dövlət suverenliyinin bərpası ilə taclandırdıq...Ümummilli Lider Heydər Əliyev Azərbaycanın de-fakto müstəqilliyini təmin etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev isə ərazi bütövlüyünün tam bərpasına nail olmaqla milli suverenliyi bərqərar etmiş oldu.Bu gün, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan müstəqil, qürurlu və gələcəyə çox nikbin baxan dövlətdir... Biz müstəqil siyasət aparırıq və bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz".

# "Milli-mənəvi dəyərlərimiz sərhəd tanımayan təhlükəyə qarşı ən güclü silahdır"












***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq oktyabrın 18-də Qazax şəhərində "Milli-mənəvi dəyərlərimiz sərhəd tanımayan təhlükəyə qarşı ən güclü silahdır" mövzusunda tədbir keçirilib.Tədbir iştirakçıları əvvəlcə Qazax şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.***

Qazax rayonu Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.Tədbirdə YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Qeyd olunub ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən problemlərdən biri olmaqla bərabər, insanların sağlamlığına təhlükə yaradan, cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən amildir. Diqqətə çatdırılıb ki, bu problemlə mübarizədə bir çox amil mühüm əhəmiyyət daşıyır. "Onlardan biri də milli-mənəvi dəyərlərimizdir. Çünki dəyərlərimizə sadiq gənc nəslin bu cür zərərli vərdişlərdən uzaq olması təbii qanunauyğunluqdur",- deyə vurğulanıb.

Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın bu problemlə sistemli mübarizə aparılması baxımından önəmi nəzərə çatdırılıb.

Sonra tədbir interaktiv formada davam edib, gənclərin sualları cavablandırılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

# “3+3” görüşü – növbəti fürsət

***İstanbulda Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyə, İran, Rusiya - “3+3” regional məsləhət platformasının üçüncü iclası keçirilir. Xarici işlər nazirlərinin iştirakı ilə keçirilən görüş barədə məlumatlar gəlməkdədir. “3+3” formatında görüşlər Gürcüstanın iştirakı olmadan keçiriləcək, lakin regionun qalan ölkələri danışıqlar aparmaq və öz fəaliyyətlərini əlaqələndirmək əzmində olduqlarını nümayiş etdiriblər. Qafqaz regionunda problemlər, eyni zamanda regiona sülh və sabitlik gətirmək üçün regional problemlərin sülh yolu ilə həllinə, təhlükəsizliyin təmin edilməsinə və regionda siyasi nizamlanmaya diqqət yetirməyin lazım olduğu vurğulanıb.***




## *İstanbulda regional məsləhət platformasının üçüncü iclası keçirilir*

Türkiyə, Ermənistan, Azərbaycan, Rusiya və İran xarici işlər nazirlərinin Ermənistan-Azərbaycan münaqişəsinin həllinə həsr olunmuş üçüncü görüşündən əvvəl İrəvanın rəsmi nümayəndələrinin bəyanatları diqqət çəkib. Onlar yaxın bir neçə həftə, hətta günlər ərzində Bakı ilə sülh müqaviləsi imzalamağa hazır olduqlarını bildiriblər. Düzdür, qarşıdakı görüşdən belə bir irəliləyiş gözləmək çətindir. Nəzərə alsaq ki, sülh prosesi bir neçə ay əvvəl ciddi şəkildə başlayıb. Oktyabrın 15-də Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında çıxış edən Ermənistan parlamentinin sədri Alen Simonyan bildirib ki, hazırda 16 bənddən 13-ü üzrə tam razılığa gəlinib.Eyni zamanda, o, ölkəsinin “bu gün” sülh müqaviləsini imzalamağa hazır olduğunu vurğulayıb. Eyni zamanda assambleyanın kənarında Simonyan azərbaycanlı həmkarı Sahibə Qafarova ilə də görüşə bilməyib. Ermənistanın baş naziri Nikol Paşinyan MDB ölkələri başçılarının sammitində çıxışı zamanı bildirib ki, sülh müqaviləsi layihəsindəki bütün mətnlər artıq Azərbaycan hakimiyyəti ilə razılaşdırılıb. Bununla bağlı o, oktyabrda sənədi imzalamağa hazırdır.Ermənistan prezidenti Vaaqn Xaçaturyan “Financial Times” qəzetinə deyib ki, İrəvanla Bakı arasında hələ də həll olunmamış məsələlər var, lakin onlar hələ də müzakirələrin uğurla başa çatmasına yaxınlaşırlar. O, Azərbaycanda keçiriləcək COP29 iqlim konfransından əvvəl sülh müqaviləsinin imzalanmasını daha məqsədəuyğun variant adlandırıb. Tədbir noyabrın 11-dən 22-dək baş tutacaq.Azərbaycan nümayəndələri isə bunun əksini deyirlər. Məsələn, oktyabrın 14-də Respublika Xarici İşlər Nazirliyi İrəvanı “mina terrorunda” ittiham edib. 2020-ci ildən müharibə başa çatdıqdan sonra 381 nəfərin mina qurbanı olmasına baxmayaraq, Ermənistan minalanmış sahələrin dəqiq xəritələrini təqdim etməkdən imtina etməkdə davam edir ki, bu da ölkənin sülh və normallaşma prosesində səmimi iştirakına ziddir. Öz növbəsində, Bakı 2025-ci ildə müdafiəyə 8,3 milyard manatdan çox (təxminən 5 milyard dollar) xərcləməyi planlaşdırır. Müqayisə üçün qeyd edək ki, 2024-cü ildə hakimiyyət bu məqsədlər üçün 6,4 milyard manatdan çox (təxminən 3,7 milyard dollar) vəsait ayırıb.Paralel olaraq, Ətraf Mühitin Mühafizəsi Birinci koalisiyasının həmtəsisçisi Amin Məmmədov bildirib ki, Ermənistan öz ərazisində qeyri-qanuni mədən işləri aparır, buna görə də Azərbaycanın sərhədyanı yaşayış məntəqələri əziyyət çəkir. “Ermənistanın mədən əməliyyatları apardığı ərazilər monitorinqdən keçməlidir. Bu monitorinqdə azərbaycanlı mütəxəssislərin də iştirakı vacibdir”, - Məmmədov vurğulayıb.3+3 formatı postkonfliktdir, lakin regionda münaqişələr hələ də həllini tapmayıb. Buna görə də o, regiondakı vəziyyətin və onun inkişaf potensialının müzakirə olunduğu məsləhət və müzakirə platforması kimi çıxış edir. Belə davam edərsə Ermənistan-Azərbaycan nizamlanmasından irəliləyiş gözləmək olmaz. Bakının sülh şərtlərinə İrəvanın adekvat reaksiya verməməsi, üstəlik Ermənistan rəsmilərinin bu ittihamların guya sülh müqaviləsinin imzalanmamasına hesablandığını deməsi münasibətlərdə gərginliyi bir az da artırıb. Ermənilər hesab edirlər ki, tərəflərin razılaşdırdığı 13 bəndi özündə əks etdirən sənədi imzalamaq lazımdır, amma Azərbaycan sənədin əsas bəndlərinin razılaşdırılmadığını əsas gətirir. Ermənilər qalan 3 bəndin işçi qrupları çərçivəsində həllini tapacağını desə də, etimadın olmadığı heç bir müzakirənin, ya da yarımçıq sənədin sabah pozulmayacağını kimsə ehtimal edə bilməz.Öz növbəsində “Atlas” Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu qeyd edib ki, əgər Ermənistan hakimiyyəti sazişin bütün 16 bəndini birdən imzalamağa razılaşarsa, o zaman yaxın vaxtlarda sülh bağlana bilər. Eyni zamanda, əsas məsələ Zəngəzur dəhlizinin açılması məsələsi olaraq qalır. “İran üzərindən Bakıdan Naxçıvana alternativ marşrut çəkmək olar, lakin Yaxın Şərqdə baş verən son hadisələr fonunda Ermənistandan keçən yola üstünlük verilir. Rusiya və Türkiyə də bunda maraqlıdır. Eyni zamanda, Ankara və Bakı Moskvanın yola nəzarəti həyata keçirməsinə qarşı deyil. Son vaxtlara qədər İrəvan bundan narazı idi, lakin bu yaxınlarda Paşinyan monitorinqin Rusiya Federasiyası FSB-nin yurisdiksiyasına verilməsi ideyası ilə razılaşıb. Ola bilsin ki, bu mövzu “3+3” formatında müzakirə olunsun”, - Şahinoğlu bildirib.Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (CAİR) İdarə Heyətinin sədri Fərid Şəfiyev isə əksinə, hesab edir ki, “3+3” çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsi ümumiyyətlə, əsas müzakirə mövzusuna çevrilməyəcək. “İrəvanla Bakı arasında danışıqlar prosesi ikitərəfli formatda, yəni vasitəçilərsiz gedir. Lakin Azərbaycan Cənubi Qafqazın gələcəyinin təkcə müharibənin olmaması deyil, ölkələr arasında əməkdaşlıq olduğuna inanmaqda davam edir. Bu o deməkdir ki, “3+3” çərçivəsində regional oyunçuların, aralarındakı fikir ayrılıqlarına baxmayaraq, onların iqtisadi yaxınlaşmasını müzakirə etmək olar”, - deyə Şəfiyev yekunlaşdırıb.Bu arada Rusiya hökuməti bəyan edib ki, o, “3+3” formatını Cənubi Qafqazda və Yaxın Şərqdə davamlı sülh və sabitliyə nail olmaq üçün region ölkələrinin səylərinin əlaqələndirilməsi üçün effektiv mexanizm kimi qiymətləndirir. Moskva həmçinin deyir ki, 2023-cü ildə Qarabağda “evlərini tərk etmiş insanların taleyinə” biganə deyil, lakin onların geri qayıtması üçün imkan və şərait lazımdır.Bununla belə, Rusiya Elmlər Akademiyasının Qafqaz sektorunun rəhbəri Vadim Muxanov hesab edir ki, ən azı ilin sonuna kimi Ermənistan-Azərbaycan münaqişəsinin həlli ehtimalı aşağı olaraq qalır. “İstanbulda hər hansı keyfiyyət irəliləyişinə nail olmaq mümkün olmayacaq, çünki tərəflərin mövqeləri əks olaraq qalır. Hətta Ermənistan Konstitusiyasının dəyişdirilməsi də lazımi dəyişikliklərə gətirib çıxarmayacaq. Azərbaycan mahiyyət etibarilə qalib statusunda qalmaq və müxtəlif məsələlərdə İrəvana öz şərtlərini diktə etmək istəyir, bunu diplomatik və hərbi təzyiqlərlə müşayiət edir”, - Muxanov hesab edir.Maraqlıdır, 3+3 formatından hansı nəticəni gözləmək olar? Burada əməkdaşlıq barədə söhbətlər, müzakirələr aparılacaq. Kommunikasiyaların açılması da diqqət mərkəzindədir, İrəvanın fürsətdən yararlanmaq istəməməsi anlaşılan deyil. Üstəlik, iqtisadi imkanlarının qıt olduğu indiki zamanda Ermənistan əlavə yükü niyə üzərinə götürsün? Əvəzində Ermənistan qeyri-region ölkələrdən gələn yüklərin tranzitindən əlavə gəlir əldə edəcək. Rusiya 30 il ərzində olduğu kimi, yenə Ermənistanın İranla sərhədini qoruyacaq.

***V.VƏLİYEV***

# Müstəqil və taleyinin sahibi olan dövlətimiz qürur mənbəyimizdir



***Bu gün Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 33-cü ildönümüdür. 1991-ci il oktyabrın 18-də müstəqilliyimizin bərpa edilməsi xalqımızın öz azadlığı uğrunda milli mücadiləsinin təntənəsi kimi tarixə həkk olunub.***

Azərbaycanın müstəqilliyə gedən yolu digər müttəfiq respublikalar kimi hamar olmadı. Biz bu yolda dolanbaclardan, enişlərdən, yoxuşlardan keçdik. Eyni zamanda müstəqilliyimizin ilk illərində baş verənlər göstərdi ki, azadlığı qorumaq daha çətindir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təbirincə desək, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

Müstəqilliyimizin ilk illərində respublikamızda cərəyan edən gərgin proseslərin nəticəsi olaraq müstəqilliyimizin taleyi də sual altına düşmüşdü. Yalnız Ulu Öndər Heydər 1993-cü ildə siyasi hakimiyyətə gəlişindən sonra Azərbaycanın dövlət müstəqilliyinin əbədi və sarsılmaz olması təmin edildi. Ümummilli Lider Heydər Əliyev öz böyük dühası və müdrikliyi ilə müstəqilliyimizin və müasir dövlətçiliyimizin etibarlı dayaqlarını yaratdı.

Müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin həyat amalı, möhtəşəm fəaliyyəti, uzaqgörən və müdrik siyasəti sayəsində ölkəmiz bu gün azad, müstəqil və güclüdür.

Dahi şəxsiyyətin siyasi kursunun layiqli davamçısı cənab Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət suveren Azərbaycana şanlı tariximizin ən uğurlu illərini yaşatmaqla onu bütün sahələrdə regionun aparıcı dövlətinə, dünyada söz sahibinə çevirib. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hər bir möhtəşəm uğurunun fonunda müstəqilliyimizin möhkəm, əbədi və sarsılmaz olması daha aydın görünür.

Prezident İlham Əliyevin müdrik siyasəti ilə torpaqlarımızın işğaldan azad edilməsi, o cümlədən ərazilərimizdə erməni separatizminə son qoyulması isə həm də müstəqilliyimizin uğurlu hadisələridir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət kimi həyata keçirdiyi qətiyyətli siyasətin təntənəsidir.

Bir vaxtlar müstəqilliyinin taleyi sual altında olan Azərbaycan indi tarixinin ən qüdrətli və həm də şərəfli dövrünü yaşayır. Müstəqil və taleyinin sahibi olan dövlətimiz hər birimizin qürur mənbəyidir.

***Mübariz Qurbanlı***
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü,***
***Milli Məclisin deputatı***

# Yoxsulluqla "mübarizə": dünyada və ölkəmizdə vəziyyət necədir?

*Yoxsul ölkələrdə humanitar böhran yaranmasında böyük dövlətlərin siyasi və iqtisadi maraqlarını təmin edən faktorların payı, bütün digər faktorların payından çoxdur*





Müasir dünyanın qarşılaşdığı ən böyük problemlərdən biri də yoxsulluq və aclıqdır. Təxmini hesablamalara görə, dünya əhalisinin 20 faizi- 1,5 milyarddan çox adam yoxsulluqla mübarizə aparır. Dünya əhalisinin 15 faizi, başqa sözlə 250 milyonu uşaq olmaqla 1 milyarda yaxın insan aclıqdan əziyyət çəkir. Əsasən, xammal bazası olan inkişaf etməmiş ölkələrdə və təbii resurslar cəhətdən kasad ölkələrdə müşahidə olunan yoxsulluq, aclıq nədən yaranır, nəyə səbəb olur, niyə həll edilmir? Bu yazımızda bu məsələlərə aydınlıq gətirməyə çalışacağıq.



### 3-cü dünya ölkələrində aclığın əsl səbəbləri nədir?

Bütün dünyada yoxsulluq səviyyəsi Dünya Bankının təklif etdiyi metodologiya əsasında müəyyənləşdirilir. Bu metodologiyaya əsasən, gündəlik gəliri 2 dollardan aşağı olanlar yoxsul, 1 dollardan aşağı gəliri olanlar isə ifrat yoxsul hesab olunur.

Lakin bir çox hallarda bu metodologiya düzgün hesablama üçün kifayət etmir. Çünki elə ölkələr var ki, orada orta aylıq əmək haqqı 60 dollardan aşağıdır. Amma elə ölkələr var ki, orada 60 dollar heç gündəlik tələbatı ödəmir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Azərbaycanı aclığın ən aşağı səviyyədə, yəni 5%-dən aşağı olduğu ölkələrin siyahısına daxil edib. FAO-nun məlumatına görə, bu qərar yetərincə qidalanmanın yayılması barədə mövcud olan ən son məlumatlara əsasən qəbul edilib.

Ərzaq qıtlığına səbəblər arasında təbii fəlakətlər mühüm rol oynayırsa, burada dünyada gedən siyasi proseslər, baş verən müharibələr də təsirsiz ötüşmür. Məlumdur ki, bu münaqişələrdə bəzi qlobal qüvvələrin də rolu böyükdür. Tarix boyu dünyanın iqtisadi və enerji mərkəzlərində hərbi qarşıdurmalar, iğtişaşlar baş verib. Dünyanın iri dövlətlərinin, böyük korporasiyaların müəyyən strategiyaları var. Lazım olan vaxtı etnik münaqişələri alovlandıra bilir, istədiyi vaxt da yatırda bilirlər. Elə bir sistem qurulub ki, 3-cü dünya ölkələrinin sərvətləri istismar olunub qərb ölkələrinə danışır.

Sözügedən münaqişələrin nəticəsidir ki, istər enerji daşıyıcıları, istərsə də digər təbii ehtiyatlara malik ölkələrdə aclıq və səfalət hökm sürür. Belə bir halda dünyada ədalətli idarəetmə fəlsəfəsi meydana gəlir.

Dünyada varlılarla yoxsullar arasında uçurum getdikcə dərinləşir. "Bloomberg"in Milyarderlər İndeksinə əsasən, pandemiya dövründə 131 milyarderin sərvətlərinin 2 dəfə və ya daha çox artdığını görürük. Dünyanın ən varlı adamı olan "Louis Vuitton"un rəhbəri Bernard Arnault pandemiyanın başlanğıcından bəri 60 milyard dollar zənginləşib. Elon Mask 50 milyard dollar qazanıb. Qautam Adani isə bu prosesdə sərvətini 10 milyard dollardan 110 milyard dollara yüksəldib.

"Oxfam"ın "Profiting from Pain" adlı hesabatına görə, son 24 ayda milyarderlər sərvətlərini son 23 ildə olduğu qədər artıra biliblər.

İsveçrənin "Credit Suisse" bankının Qlobal Sərvət Hesabatına əsasən, planetin ən zəngin 1%-i dünya sərvətinin 46%-nə, ən kasıb 55%-i isə 1,3%-nə sahibdir.

### Kasıb ölkələr müasir texnologiyadan uzaq saxlanılır

Yoxsulluq coğrafiyasına diqqət yetirdikdə belə bir məqam nəzərə çarpır: heç bir təbii resursu olmayan ölkələri bir kənara qoysaq, əksər belə ölkələr ya kənd təsərrüfatı, ya da hasilat sənayesi üzrə ixtisaslaşıblar və müasir texnologiyalar əldə etməyə çətinlik çəkirlər. Yoxsulluğun da bir çox hallarda təbii və süni fəlakətlərin nəticəsi olaraq ortaya çıxması bunu deməyə əsas verir. Belə bir ixtisaslaşmada məhz dünyanın inkişaf etmiş ölkələri maraqlı görünür.

Müasir texnologiyalara malik dövlətlər bu texnologiyanın başqa ölkələrə verilməsində maraqlı olmur. Tez-tez eşidirik ki, ABŞ və dünyanın digər iri dövlətləri kasıb ölkələrə kredit verir. Kreditlərin strukturuna baxanda görürük ki, bu kreditlər yalnız müəyyən əmtəələrin alınmasına verilir, məsələn ağır sənaye məhsulları.

Bu əmtəələr də kredit verən iri dövlətlərdə istehsal olunur. Bir sözlə onların verdikləri pullar faizlə birlikdə özlərinə qayıdır. Faktiki olaraq, özləri öz şirkətlərinə vəsait verərək dövlət sifarişlərini həyata keçirirlər. Kasıb ölkələr Qərbin bu siyasətinin qurbanı olmamaq üçün təhsilə və elmə ayırdığı pulu artırmalıdırlar.

3-cü dünya ölkələrinin texniki və iqtisadi inkişafının qarşısının alınmsı onların Qərb ölkələri üçün ucuz xammal bazası kimi qalmasının daha sərfəli olduğuna görədir. Bu ölkələr öz xamallarını özləri istehsal edib hazır məhsul kimi ixrac etsələr yoxsulluqdan qurtula bilərlər, amma əvəzində Qərb ölkələri külli miqdarda gəlirdən məhrum olacaqlar. Bu səbəbdən də hər vəchlə bu prosesə mane olmağa çalışırlar.

Ümumiyyətlə, dünyadakı sosial bərabərsizlik, yoxsulluq və aclıq qlobal kapitalizm sisteminin əsəridir. Çünki adi riyaziyyat və iqtisadiyyat elmi açıq şəkildə göstərir ki, qlobal sosial ədalətin təmin olunduğu və sərvətlərin düzgün bölüşdürülməsi zamanı dünyanın resursları və bugünkü istehsal həcmi bütün bəşəriyyəti orta səviyyədə təmin etmək üçün kifayət edir.

### Uşaqların aclıqdan ölməsi bəşəriyyətin rəzalətidir

Hesablamalara görə, dünya ölkələrinin hərbi büdcəsi 1,5 trilyon dollardan çoxdur. Bunun yarından çoxu ABŞ-ın hərbi büdcəsidir. Bir afrikalı uşağın ən azı acından ölməməsi üçün isə ayda 35 dollara ehtiyac var. Dünyada aclığı aradan qaldırmaq üçün isə hərbi xərclərin 5-də 1-nin bu məqsədə sərf olunması kifayət edərdi.

Böyük dövlətlər bütün sərvəti, rifahı özündə cəmləməklə özlərinə başqa bir problem yaradırlar. Məsələn, həmin ölkələrdən kütləvi qaçqın axını gəlir ki, onlar da həmin ölkələrə əlavə yük olur. Təbii ki, bütün bunlar müəyyən qüvvələrə xidmət edir, əsasən də işçi qüvvəsinə ehtiyac olan. Lakin unudulur ki, səfalət işərisində olan bir ölkə qonşuluqda yaşayan varlı ölkə üçün təhdiddir.

Problemlər böyük dövlətlərin qarşıdurması ilə deyil, anlaşması ilə həll olunsa, ədalətli insan cəmiyyəti qurulsa, təbii ki, dünyada aclıq və səfalət də aradan qalxar. Hazırkı ərzaq istehsalı normal istifadə olunduğu və düzgün bölüşdüyüldüyü halda 12-13 milyard adamı təmin edəcək gücdə olduğu halda dünyada 1 milyard ac var, 2 milyard insan isə yoxsulluq içində yaşayır. Hesablamalara görə, təkcə ABŞ və Böyük Britaniyada bəyənilməyib zibilliyə atılan qidalarla 1 milyard insanı aclıqdan xilas etmək olar. Dünya nemətlərinin 80 faizlık böyük hissəsini cəmi 20 faiz əhali istehlak edir, qalan 80 faiz əhali isə cəmi 20 faizi ilə dolanır. Belə olan halda humanizmdən danışmağa dəyərmi?

Hələ 80-ci illərdə Sovet alimləri hesablamışdılar ki, dünyanın potensialı ən azı 60 milyard insanı tam təmin etmək gücündədir. BMT araşdırmalarında isə 50 milyard göstərilirdi. Son araşdırmalarda bəzi tədqiqatçılar bu rəqəmin 100 milyarda çata biləcəyini deyirlər.

XXI əsrdə insanların acından ölməsi bəşəriyyətin ən böyük rəzalətidir. BMT ekspertlərinin qənaətinə görə, müəyyən proqramlar həyata keçirməklə bu problemi 20 ilə aradan qaldırmaq mümkündür. Təbii ki, əgər imperialist maraqları böyük dövlətlərə imkan versə.

### Azərbaycanda yoxsulluq səviyyəsi necədir?

15-20 il qabaq rəsmi rəqəmlərdə Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizə yaxın göstərilirdi. Son illərdə bu rəqəmlər yüksək templə azaldılmağa doğru davam edib və son illərdə 5 faiz civarında göstərilir. Lakin, müstəqil ekspertlərin ümumi qənaətinə görə, bu göstərici reallıqda azı 2-3 dəfə artıqdır.

Son 2-3 ildə gündəlik tələbat məhsullarının qiymətində müşahidə olunan ardıcıl bahalaşmalar aztəminatlı təbəqənin yoxsullaşmasına səbəb olur. Bunun qarşısını almaq üçün dövlət tərəfindən müəyyən addımlar atılır. Maaş və pensiyaların, sosial yardımların artırılması təklif olunur.

Qeyd edək ki, Azərbaycanda yoxsulluq həddi adambaşına 270 manat götürülür. Yəni, 5 nəfərlik ailənin yoxsulluq həddində yaşamaması üçün ən pis halda 1350 manat aylıq gəlir olmalıdır. Lakin ailələrin əhəmiyyətli bir hissəsi üçün bu qədər gəlir əldə etmək çətindir. Xüsusən də, ailədə 1 nəfər işləyirsə. Ölkədə minimum əməkhaqqı 345 manat, median orta əməkhaqqı isə 500-600 manat civarındadır. Bu isə, kiçik bir ailəni minimum səviyyədə təmin etmək üçün kifayət deyil. Bu səbəbdən hökumət iş yerlərinin artırılmasına, sosial müdafiənin gücləndirilməsinə, maaş və pensiya artımlarına daha ciddi yanaşmalıdır.

Həssas qrupların sosial müdafiəsinin səmərəli təşkil edilməsi dövlətin əsas vəzifəsidir. Sosial müdafiə sistemi ölkənin sərvətinin müəyyən bir hissəsinin cəmiyyətin varlı təbəqəsindən yoxsul təbəqəsinə istiqamətləndirilməsində əhəmiyyətli hesab edilən mexanizmlərdən biridir.

Ünvanlı dövlət sosial yardımı yoxsulluq içində yaşayan ailələrə ünvanlı olaraq dövlət yardımıdır və bu baxımdan aztəminatlı ailələrin sosial risklərinin aradan qaldırılmasında təsirli vasitədir. Lakin, ünvanlı yardım ailələrə müvəqqəti dəstəkdir və insanlar üçün yoxsulluqdan qurtarmaq demək deyil. Hazırkı mərhələdə isə söhbət yoxsulluq vəziyyətinə düşmüş ailələrə müəyyən zaman çərçivəsində göstərilən sosial yardımla yanaşı, həm də onların bu vəziyyətdən çıxarılma mexanizmlərin tətbiqindən getməlidir. Bu mənada ünvanlı dovlət sosial yardımı ilə bərabər, aztəminatlı ailələrə peşə və ixtisas təhsili, işlə təmin olunma və s. kimi tədbirləri nəzərdə tutan sosial reabilitasiya proqramlarının həyata keçirilməsi vacibdir. Özünüməşğulluq proqramının əhatə dairəsinin və maliyyə fondunun bir neçə dəfə artırılması vacibdir.

**Elçin Bayramlı**

***P.S.** Dünyada aclıq və yoxsulluqdan hər dəqiqədə 1 ana, hər saniyədə isə 1 körpə dünyasını dəyişir. Bəşəriyyətin reallığı budur*

ARAŞDIRMA

# “Qırmızı yaylıqlı” dağlar gözəli

***Payızın bu vədəsində dağların, düzlərin soluxmuş hüsnünə “qırmızı yaylıqlı” yemişan kolları xüsusi gözəllik qatar. Elə bu vaxt burnumuza da yemişanın ətri gələr.***

Bu vaxtlar hər dəfə dərsdən çıxanda gözümüz yemişan satanları axtarardı. Və nəhayət, günlərdən birində onları qarşılarında qıpqırmızı yemişan dolu vedrə, üstündə bir stəkan, bir də ki satdıqları yemişanı içərisinə qoymaq üçün kağızdan, köhnə qəzetdən, dəftər vərəqlərindən düzəltdikləri bir dəstə bükümlə məktəb yolundakı ağacların altında əyləşdiklərini görərdik. Bunu gördükmü, hər gün 20 qəpiksiz evdən bayıra addım atmazdıq... Stəkanı 20 qəpiyə satılan yemişandan alıb, yolboyu şirin-şirin yemək üçün... Amma biz yemişanımızı o kağız bükümlərə yox, cibimizi aralayıb ora tökmələrini istərdik. Sonralar bunu həmyaşıdlarımla birgə elə hey xatırlayar, axır qənaətimiz isə belə olardı ki, axı yemişanı satmaq üçün yığanlar yox, qoyun-quzu növbəsinə gedənlər onu cib-cib yığardılar. Hər dəfə gedəndə bir cib, iki cib. Əvvəllər babatutandan kəndimizin dağ-dərəsində günün hər vaxtında, hər vədəsində bu gilə¬meyvələrdən yeyib hətta aclığımızı belə, unudardıq. Bu vədələr qoyun-quzu növbəsinə getmək payızın yağışına, yağmuruna tuş gəlmək demək idi. Amma buna baxmayaraq, gəncliyimizdə yemişan, həmərsin, doqquzdonu həvəsi ilə kəndlərimizdə, dağlarımızda yemişan kolları azalmağa başladı. Amma, şükürlər olsun ki, bu, uzun zaman davam etmədi. Sonrakı illərdə dövlətimizin qayğısı nəticəsində işığımız, qazımız bərpa olundu, yenə də çöllərimizdə qucaq¬-qucaq yemişan kolları böyüdü, bara gəldi. İndi kəndlərimizə qonaq gələn şəhərli qohumlara əziz paydır yemişan. Onun çiçəyi də, meyvəsi də dərmandır.



çiçəklərindən və meyvələrindən çay kimi dəmləyib, ürək ağrıları zamanı və qan təzyiqi yüksək olanda içərlər.

Elmi təbabətdə yemişandan ürək-damar sistemi xəstəliklərinin müalicəsində, xüsusən ürək fəaliyyəti zəifliyinin, aritmiyanın, aterosklerozun aradan qaldırılması məqsədilə geniş istifadə olunur.

Yemişan kənd təsərrüfatında da mühüm əhəmiyyətə malikdir. Belə ki, sağılan malqaranın yeminə yemişan meyvələri əlavə etdikdə onların südü xeyli artır və süddə yağın miqdarı çoxalır.

Naxçıvanın Nursu kəndindən olan şirin sözlü-söhbətli, poeziya vurğunu Səkinə xala isə yemişanı bu yerlərdə dağlar gözəli adlandırdıqlarından, onun gözəlliyinin bu vaxtlar kəndə gələn hər kəsi valeh etdiyindən danışır: – Bakıda bir qadın tanışımız var. Ötən payız birinci dəfə idi ki, bura gəlirdi. Yol kənarlarında yemişan kollarını görmüşdü. Çox maraqla onun haqqında soruşduqda, mən bədahətən:

Əzizim, yemişan gözəl,
Dağa, düzə şan, gözəl.
Dadını soruşma, gəl,
Bal şanıdı bu gözəl.

– dedim. Sonra onunla birlikdə gəzməyə çıxmışdıq. “Qırmızı yaylıqlı” yemişan kollarına valeh oldu, meyvəsinin dadına, ətrinə heyran qaldı. Dedi ki, belə gözəlliyi görən ölərmi? Dedim, hər payız gəl, sən də gör:

Əzizim, yemişana gəl,





mız, sonralar isə əmimiz, dayımız çöldən gələndə bir cib yemişanı çıxarıb birimizə verər, bölün, yeyin, – deyərdi. Uşaqlığımızın ən ləziz, dadlı hədiyyəsini ləzzətlə, şirin-şirin yediyimiz üçün sonralar da onu cibimizə doldurub yeməkdən ayrıca zövq alardıq. Yemişanı yığanlar da vedrələri dolanda onu satışa çıxarardılar.

Bir də uşaqlıq hafizəmdə həmişəlik qalan bu giləmeyvənin uzun müddət xarab olmamasıdır. Otun, samanın üstünə sərdinmi, rəngi daha da qızarar, dadı şirinləşər, qurudulmuşu isə xarab olmaz.

İndi Şahbuz rayonunun Biçənək və Batabat meşəliklərində, Ağbulaq, Gömür, Nursu, Keçili, Külüs kənd¬lərində üzüyuxarı yol boyunca budaqları barından yerə dəyən “qırmızı yaylıqlı” kollar gözəlliyi ilə yolçunu yoldan edir. Doqquzdonu, zirinc və həmərsindən dərməmiş, yemişandan doyunca yeyib, bir cib yığmamış, gəl bu kollardan yan keç görüm, necə keçirsən.

Xatirələr bir neçə il bundan əvvəl Keçili kənd sakini Dilsuz müəllimlə yemişan barədə söhbətimizi də yada salır. O deyirdi ki, biz kənd adamları qan təzyiqi xəstəliyinin nə olduğunu bilmirik. Çünki ayağımız yer dağlara üz tutardıq. Qar yerə düşənə kimi kolun üstündə “qərar tutan” yemişan şaxta vurduqda tökülər və daha yeməli olar. Şirinliyi ilə adamı şirnikdirən yemişanı yedikcə yeyərdik. Sən demə, bununla özümüz də bilmədən sağlamlığımızı möhkəmləndirirmişik.

Yadımdadır, söhbətimizin bu yerində Dilsuz müəllimin gözləri doldu, səsi bir qədər titrədi və dedi: – Yazda çöl-bayır işində olan böyüklərin yemişan və həmərsin çiçəklərindən ocaq üstə dəmlədiyi çaydan içmək üçün əldən-ayaqdan gedərdik. Çünki o çayın ayrı bir dadı, ləzzəti olardı. Həmin çaydan içib qızmar günəş altında tər tökən ata-babalarımız payızda yemişanın meyvəsini yeyər, mürəbbəsi ilə çay içərdilər. Onda kəndli bazardan meyvə alıb mürəbbə bişirməyi ar bilərdi. Kəndin çölündə, çəmənində, öz həyət-bacasında olanlardan qışa azuqə yığardılar. Dava-dərman tanımayan insanlar beləcə, uzun ömür sürərdi. Təbiətin səxavətli vədəsində – payızda yetişən yemişan kolları blokadanın ilk illərində darda qalan insanlara ümid yeri oldu. Oduncağı daş kömürə bərabər olan yemişan kolları elə barı üstündə qırılıb çatılırdı. Həmin vaxtlarda

Yeri gəlmişkən, bu giləmeyvə gülçiçəklilər fəsiləsindəndir. Ağac və ya iri kol bitkisi olub, növbə ilə düzülmüş yumurtaşəkilli yarpaqları vardır. Yarpaqlarının kənarı mişarvarıdır. Ağ rəngli ətirli çiçəkləri, uzunsov kürəvarı, lətli və şirəli meyvəsi olur. Yetişən vaxt qırmızı, qara, şabalıdı və sair rəngə boyanır. Meyvəsinin içərisində açıq-sarı rəngli toxumları yerləşir. Bitki may-iyun aylarında çiçək açır, sentyabr-oktyabr aylarında meyvələri yetişir. Bu bitkinin Azərbaycanın bir çox bölgələrində – dağ-meşə rayonlarında 9 növünə rast gəlinir

Yemişanın qurudulması və faydaları barədə: yemişan meyvələrini ağ kağız üzərində seyrək sərib, tez-tez çevirməklə qurutmaq lazımdır. Belə şəraitdə qurudulmuş meyvələr təbii rəngini saxlayır, kimyəvi tərkibini dəyişmir. Qurumuş meyvələri xüsusi torbalara doldurub, havası daim dəyişilən quru yerdə saxlayırlar.

Yurdumuzun bəzəyi olan bu nemətin meyvəsindən və çiçəklərindən çox qədim vaxtlardan xalq təbabətində bir sıra xəstəliklərə qarşı istifadə edilib. Qədimdən dərdinə dərmanı həmişə türkəçarələrdə, dərman bitkilərində tapan insanlar onun qurudulmuş

Bu vədə, bu anda gəl.
Yemişan qırmızı şalın,
Başına salanda gəl.

Bəli, dağ-dərələrimizin, düzlərimizin min bir adda nemətləri – erkən yazdan bulaqotu, yarpız, qazayağı, çiriş və cacığı, bir az sonra göbələk, uşqun, sobu, bolu, çaşır, baldırğan, əvəlik, ələyəz və şıppırı, yay uzunu kəklikotu, dağ nanəsi, çobanyastığı və solmazçiçəyini, payızdan qar yerə düşənədək həmərsin, zirinc, doqquzdonu, yemişanı və daha nələri var. Hər dəfə bazarlarımızda bu nemətləri piştaxtalara düzüb satanları görəndə qürur hissi duyursan. Axı onlar yaranışdan ruzi mənbəyi olan dağ-düzlərin min bir nemətini, həm də özlərinin əkib¬becərdiklərini bazarlarımızda sata, xeyir götürə, dolanışıqlarını qura bilirlər. Digər bir tərəfdən isə qürur duyursan ki, havası, suyu kimi torpağının hər qarışının yetirdiyi nemətləri də min bir dərdə dərman olan belə gözəl yurdumuz var. Bu bərəkətli, səxavətli dağların, düzlərin sahibi bizlərik. Nemətlərinin hər biri təbiətimizə “qırmızı yaylıqlı” yemişan kimi öz naxışı ilə doyumsuz gözəllik qatan dağların, düzlərin...

**Mətanət Məmmədova**





# Avropa ABŞ-a və Çinə qarşı

***Oktyabrın 17-də Brüsseldə Aİ-nin iki günlük sammiti başlayıb. Bu cür tədbirlər üçün artıq ənənəvi hal almış mövzularla yanaşı (Rusiya-Ukrayna münaqişəsi, Yaxın Şərqdəki vəziyyət və qeyri-qanuni miqrasiya ilə mübarizə) Avropa ölkələrinin liderləri Aİ-nin inkişaf strategiyasını müzakirə edəcəklər. Son zamanlar avropalı siyasətçilər və ekspertlər həyəcan təbili çalırlar: dəyişmiş dünyada, xüsusən 2022-ci ilin fevralından sonra Avropa İttifaqı rəqabət qabiliyyətini itirə bilər. Aİ üçün pis olan tendensiyanı geri çevirmək üçün nəzərdə tutulmuş dəyişikliklərlə bağlı təkliflər müzakirə olunacaq. Elə olur ki, sammitin gündəliyində ən çox mətbuatda qeyd olunan məsələlər Aİ-yə üzv dövlətlərin liderləri arasında ən az mübahisəyə səbəb olacaq.***

Brüsseldə "qələbə planını" təqdim edən Ukrayna prezidenti Vladimir Zelenski çərşənbə günündən əvvəl bir çox Avropa liderlərini, hətta çoxunu da bu planla tanış edib. Və çərşənbə günü, oktyabrın 16-da o, bunu Ali Radada ictimaiyyətə təqdim edib. Təqdim olunanlara əsasən aydın olur ki, Zelenski bu sənədi Aİ ilə deyil, ABŞ-la müzakirə etməlidir. Planı həyata keçirmək üçün Vaşinqton və NATO strukturlarının nə etməli olduğuna dair çoxlu istinadlar var. Məsələn, ABŞ-ın müdafiə xərclərinin yükünü azaltmaq üçün Kremlə qarşı mübarizədə köməyə görə minnətdarlıq məqsədi ilə planda irəli sürülən ideyanı xatırlamaq kifayətdir.

Mübahisə olmadan Aİ liderləri öz ölkələrinin xarici işlər nazirləri səviyyəsində artıq təsdiqlənmiş yeni anti-Rusiya və anti-İran sanksiyalarını təsdiq edəcəklər. Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Josep Borrell Livanda Avropa İttifaqının sülhməramlılarının atəşə tutulmasını pisləyən hansısa bəyanatın qəbul ediləcəyini gözləyir, onların arasında Avropa ölkələrinin - ilk növbədə Fransanın nümayəndələri də var. Baş nazir Benyamin Netanyahunun təmsil etdiyi İsrail sülhməramlılarını döyüş bölgəsini tərk etməyə dəvət edib ki, onun dediyi kimi, israillilərin düşməni olan Hizbullah hərəkatı üçün "canlı qalxan rolunu oynamasınlar". Borrell buna qəti şəkildə qarşı çıxıb və Aİ liderlərinin onu dəstəkləyəcəyinə ümid edir. Yəqin ki, ümidlər əsassız deyil: onlar Livandakı, ən azı Fransadakı missiyalarını ixtisar etməyə hazır deyillər.

Lakin ən böyük mübahisə, çox güman ki, sammitin gündəliyinin "AB-nin rəqabət qabiliyyətinin artırılmasında irəliləyişin qiymətləndirilməsi" adlandırılması ilə bağlı ola bilər. Bu məsələ xüsusilə bu il Avropa İttifaqının rəhbərliyini çox narahat edir. Sammitdə Avropa liderləri iki hesabatı - İtaliyanın keçmiş baş naziri Enriko Lettanın "Bazardan daha çox" və Avropa Mərkəzi Bankının keçmiş rəhbəri Mario Draqinin "Avropa Rəqabət Qabiliyyətinin Gələcəyi"ni müzakirə etməyi planlaşdırırlar. Birincisi apreldə Aİ sammitində, ikincisi isə sentyabrda müzakirə edilib.

Bu hesabatlar arasında bütün fərqlərə baxmayaraq, mahiyyət etibarı ilə onlar bir məsələyə həsr olunublar: Birləşmiş Avropa dəyişən reallıqlarda, xüsusən də son bir neçə ildə dünyada öz iqtisadi və siyasi çəkisini necə qoruyub saxlaya bilər. Daha dəqiq desək, Çin və ABŞ-ın Avropa İttifaqının malik olmadığı rəqabət üstünlükləri olduğu şəraitdə onların rəqabətinə necə tab gətirmək olar. Məsələn, amerikalıların öz ucuz enerjisi var. Rusiyanın enerji resurslarından demək olar ki, tamamilə imtina etdiyinə görə, Aİ artıq ona sahib deyil. Avropalılar atom elektrik stansiyaları, hidrogen, günəş və külək enerjisindən istifadə etməli olurlar. Lakin istehsalında AB-nin Çin və ABŞ-dan xeyli irəlidə olduğu bərpa olunan enerji ilə hər şey o qədər də sadə deyil. Avropada bir çox günəş elektrik stansiyaları var, lakin Çin günəş batareyası istehsalı baxımından hələ də ondan irəlidədir.

ANALİTİK

Aİ-nin innovativ iqtisadiyyatın inkişafı və rəqəmsallaşma ilə bağlı böyük problemləri var. Çinin nadir torpaq metallarının idxalından asılılıq, onsuz elektronikanın istehsalı mümkün deyil, Avropada biznesin tənzimlənməsinin bürokratik xarakteri də öz təsirini göstərir. Bu, Aİ-də çox mozaik idarəetmə strukturunun nəticəsidir. Draghi hesabatında aşağıdakı rəqəmlər təqdim olunur: ABŞ-da 2019-2024-cü illərdə Konqres 3500 qanun və 2000 qətnamə qəbul edib. Eyni dövr ərzində Aİ 13 min qanun qəbul edib. Əhəmiyyətli olan odur ki, müdafiə xərclərinin artması və vahid müdafiə siyasətinin davam etdirilməsi zərurəti kontekstində əvvəlki kimi yalnız ABŞ-a arxalanmadan dəyişikliklər edilməlidir. Bu, Rusiya Federasiyası ilə qarşıdurmanın nəticəsidir.

Sammitdə Draqinin hesabatına xüsusi diqqət yetiriləcək. Məsələ burasında deyil ki, o, Lettanın hesabatından daha yenidir və bu şəxsin şəxsi, çox yüksək səlahiyyəti deyil. Draqinin hesabatı bu yaxınlarda Aİ-nin ali icra orqanının rəhbəri vəzifəsində yenidən təsdiqlənmiş Avropa Komissiyasının sədri Ursula fon der Leyen tərəfindən sifariş edilib. Əslində, bu, onun həyata keçirməyi planlaşdırdığı dəyişikliklərin manifestidir. İndi onun bunu etmək imkanı var. Avropa Komissiyasının yeni tərkibinə əsasən fon der Leyenin oradakı təsiri artacaq. Orada aşkar və çoxdankı rəqiblər yoxdur, lakin yeni funksiyalar və mövqelər var - xüsusən də Avropanın müdafiə üzrə komissarı meydana çıxıb. Bütün bunlar Avropa Komissiyası sədrinin müxtəlif nöqteyi-nəzərlər arasında moderator kimi təsirini artırır və ona manevr etmək, son nəticədə öz siyasətini həyata keçirmək imkanı verir. Bundan əlavə, fon der Leyenin bir çox məsələlərdə uzun müddətdir rəqibi olan Çarlz Mişel dekabr ayından etibarən Aİ sədri postunu tərk edir. Onun yerini portuqaliyalı Antonio Kosta tutacaq. O, Avropa Komissiyasına qarşı çıxacaq adamın reputasiyasından həzz almır.

Bu vəziyyət fon der Leyenə Draqinin hesabatında müzakirə olunan tədbirlərin Avropa strukturlarında təsdiqlənməsinə kömək etməlidir. Bunlardan ən mübahisəlisi ayrı-ayrı Avropa ölkələrinin illərdir qarşı çıxdığı vahid AB borcunun tətbiqidir. Lakin Draqi hesab edir ki, bunsuz ABŞ-la ayaqlaşmaq (qlobal ÜDM-in 26%-ni təşkil edir) və Çini ötmək üçün lazım olan ildə 750-800 milyard avro özəl və dövlət investisiyalarının cəlb edilməsi məqsədinə nail olmaq mümkün olmayacaq. (Aİ və ÜDM-in 17%-i). Onun hesabatında dəhşətli bir xəbərdarlıq var: "Biz təcili tədbirlər görmədən ya rifahımızı, ətraf mühitimizi və ya azadlığımızı təhlükə altına atmalı olacağıq." İndi yalnız bütün Aİ ölkələrinin liderlərini buna inandırmaq qalır. Axı Avropa İttifaqı rəhbərliyinin təklif etdiyi istənilən layihələrin həyata keçirilməsi son nəticədə onlardan asılı olacaq.

**V.VƏLİYEV**



# "Bakcell" BMT-nin Qlobal Sazişinə qoşulub

İnnovasiya və sürət lideri "Bakcell" BMT-nin Qlobal Sazişinə (United Nations Global Compact) qoşulub. Bununla bağlı "Bakcell"in baş icraçı direktoru Klaus Müller və BMT Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov arasında memorandum imzalanıb.

Klaus Müller bildirib ki, təşəbbüsə qoşulmaqla şirkət dayanıqlı inkişaf və sosial məsuliyyət prinsiplərinə sadiqliyini nümayiş etdirir:"BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun fəaliyyət strategiyamızın əsasını təşkil edir. Qlobal Sazişin 10 prinsipini tətbiq etməkləekoloji, sosial və korporativ idarəetmə sahələrində fəaliyyətimizi daha da təkmilləşdirəcəyik".

"BMT-nin Qlobal Sazişinə qoşulmaqla "Bakcell" dayanıqlı gələcəyə töhfə vermək öhdəliyini bir daha təsdiqləyir. Bu, hər kəs üçün daha yaxşı bir gələcək qurmaq məqsədilə ictimai bir vəddir – tərəfdaşlara, səhmdarlara, təchizatçılara, işçilərə, müştərilərə və gələcək nəsillərə verilmiş bir öhdəlik. "Bakcell" sözünə sadiq korporativ şirkət kimi tanınır.Texnologiya dayanıqlığın əsas təminatçılarından biridir və yenilikçi bir şirkət olaraq "Bakcell", fərdlər, icmalar və sənayelər üçün daha yaxşı, məsuliyyətli və qayğıkeş həyat tərzi yaratmaq məqsədilə texnologiyanı əlçatan etməyə mühüm töhfə verəcək", - deyə Samir Məmmədov bildirib.

Qeyd edək ki, "Bakcell" işğaldan azad olunmuş bölgələr də daxil olmaqla, ölkə ərazisində keçirdiyi müxtəlif innovativ layihələrləiqtisadiyyatın inkişafına, Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə çatmasına töhfə verir. "Bakcell"in ətraf mühitin qorunması istiqamətində atdığı addımlar enerji istehlakı və elektron tullantıların ətraf mühitə təsirinin azaldılmasını, həmçinin bərpa olunan enerji mənbələrindən daha geniş şəkildə istifadəni hədəfləyir. Belə ki, şirkət eSIM texnologiyasının tətbiqi ilə plastik tullantıları azaldır, həmçinin bərpa olunan enerji ilə işləyən stansiyalarla bağlı pilot layihə həyata keçirir. Bundan əlavə, şirkət həyata keçirdiyi "FLEXcellence" proqramı vasitəsilə hibrid iş rejimini təşviq edir. Bu isə öz növbəsində əməkdaşların enerji




və vaxt itkisini azaldır, onların iş və şəxsi həyatları arasında balansı təmin etməsinə kömək edir.

BMT-nin Qlobal Sazişi dünyada dayanıqlı inkişaf və sosial məsuliyyət sahəsində ən böyük beynəlxalq təşəbbüsdür. Hazırda Qlobal Sazişin iştirakçıları sırasında 160-dan çox ölkədən 20 mindən çox təşkilat yer alır.Təşəbbüs üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini beynəlxalq səviyyədə qəbul edilmiş insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı prinsiplərə və "Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmaqdır.

"Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərinə yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# “Doğransam da xıncım – xıncım, zərrə-zərrə, rizə-rizə, məramımdır mübarizə!”



*Biz Türkləriz... Vətənimiz başdan-başa yer kürəsi Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi*

- deyən şairin bir ömürlük yolu mübarizələr qoynunda, dəniz kimi fırtınalı, coşqun oldu. Həyatı, xoşbəxtliyi hamar, rahat yolda yox, haqq səsini ucaldaraq, döyüşərək, vuruşaraq yaşamaqda gördü. Fəlsəfi düşüncələrində Vətəni azad, müstəqil görmək istəyən şair ”Doğransam da xıncım – xıncım, zərrə-zərrə, rizə-rizə, Məramımdır mübarizə!” – deyirdi. Bu şair Xəlil Rza Ulutürkdür. Azərbaycanda haqq səsi, harayı, sərt baxışları, fikirləri ilə tanınan və sevilən, böyük bir məhəbbətin əhatəsində yaşayan xalq şairi Xəlil Rza Ulutürk. Oktyabr ayının 21-də şairin doğum günüdür. Xatırladaq ki, 1932-ci ildə Azərbaycanın Salyan rayonunun Pirəbbə kəndində dünyaya göz açan sənətkar doğulduğu rayonda - 2 saylı Salyan şəhər orta məktəbində təhsil alıb. Orta məktəbdə öz çalışqanlığı, fərasəti və davranışı ilə müəllimlərin rəğbətini qazanmış, 1939-1949-cu illərin məktəb həyatı Xəlilin bədii ədəbiyyat aləminə, necə deyərlər, poeziyanın əzablı, romantik yaradıcılıq meydanına çıxması üçün hazırlıq dövrü olub. Onun şifahi xalq ədəbiyyatını, klassik və müasir yazıçıların əsərlərini mütaliə etməsi, istər-istəməz onda yazıb-yaratmağa güclü həvəs oyatmışdı. Xəlil onu həyəcanlandıran, düşündürən hadisələri bəzən poetik dillə ifadə etməyə çalışırdı. Onun ilk mətbu şeiri ”Kitab” 1948-ci ildə ”Azərbaycan pioneri” qəzetində dərc olunub. 1949-cu ildə Xəlilin Azərbaycan Dövlət Uiversitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olması, Bakı ədəbi mühiti onun yaradıcılıq imkanlarına geniş yol açdı. Universitetdə ədəbiyyatşünas-alim Cəfər Xəndanın, sonralar şair Bəxtiyar Vahabzadənin rəhbərlik etdiyi ədəbi dərnəkdə, istərsə də Azərbaycan Yazıçılar Birliyində xalq yazıçısı Mirzə İbrahimovun başçılığı ilə keçirilən ”Gənclər günü” məşğələlərində fəal iştirak etməsi Xəlil Rzanın şair kimi püxtələşməsinə ciddi təsir göstərib. Onun tərcümeyi-halında qeyd olunur ki, 1954-cü ildə Azərbaycan Dövlət Universitetini bitirən Xəlil Rza əmək fəaliyyətinə ”Azərbaycan qadını” jurnalı redaksiyasında başlayıb. O burada ədəbi işçi vəzifəsində çalışdığı iki ildə dövri mətbuatda çap etdirdiyi məqalə və şerlərlə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdi.

1954-cü ildə Xəlil Rza SSRİ Yazıçılar İttifaqının üzvü seçilir. Onun ilk şeirlər toplusu - ”Bahar gəlir” kitabı nəşr olunur. 1957-ci ilin avqust ayında Azərbaycan Yazıçılar İttifaqı Xəlil Rzanı Moskvaya, M.Qorki adına Dünya Ədəbiyyat İnstitutu nəzdində olan ikiillik Ali Ədəbiyyat kurslarına göndərməsi də gənc şairin gələcəyinə inamla bağlı olub. Xəlil Rza institutda rus ədəbiyyatının görkəmli sənətkarı Pavel Antokolskinin rəhbərlik etdiyi bölmədə poeziyanın nəzəri əsaslarını öyrənməklə yanaşı, dünya xalqlarının mədəni irsi ilə yaxından tanış olmuşdu. Moskvada təhsil illərində görkəmli rus şairi Samuil Marşakın evində və Yasnaya Polyanada dahi Lev Tolstoyun xatirə muzeyində olması, Leninqrada Ermitaj xəzinəsinə kollektiv səfəri, Nazim Hikmət və Mixail Şoloxovla görüşləri gənc şairin xatirəsində dərin izlər buraxıb.

1959-cu ildə Xəlil Rza Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdi. O,1963-cü ildə ”Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)” mövzusunda yazdığı dissertasiyanı uğurla müdafiə etmiş, filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdü. Onu institutda müəllim kimi saxlamışlar. Tələbə auditoriyasına müəllim kimi daxil olduğu gündən Xəlil Rza dərs proqramı çərçivəsi ilə məhdudlaşmamış, vətənpərvərlik ruhlu mühazirələrində qədim milli bəşəri dəyərlərimizdən və doğma dilimizdən ürək yanğısı ilə söhbət açmışdır.

Xəlil Rza Azərbaycan dilinin saflığı, əcnəbi dilin təsirinə məruz qalmaması üçün özünəməxsus mübarizə yolu da seçmişdi. O, müasirlərinin diqqətini ana dilinin saflığını qorumağa cəlb etməyə, digər tərəfdən ruslaşdırma siyasətinə qarşı mübarizə aparmağa çalışmışdı. Əlbəttə, bütün bunlar dövlətin hakim dairələrinin nəzərdiqqətindən yayınmır, çox çəkmir ki, onun ictimai-pedaqoji fəaliyyəti məhdudlaşdırılır. 1984-cü ildə şairin ”Ömürdən uzun gecələr” adlı kitabı və SSRİ xalqlarının dillərindən tərcümə edilmiş poetik əsərlərdən ibarət ”Qardaşlıq çələngi” toplusu ictimaiyyət tərəfindən Azərbaycan SSR Dövlət mükafatına təqdim olunsa da, hakim dairələrin etinasızlığı ilə qarşılanır. Bu soyuq münasibət onu sarsıtmır. Şairin ən böyük vəzifəsini yazıb yaratmaqda görən Xəlil Rza yorulmadan var qüvvəsi ilə çalışır. Yeni şerləri, elmi araşdırmaları ilə təsəlli tapır. 1985-ci ildə ”Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-Özbək ədəbi əlaqələrinin aktual problemləri” mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 1986-cı ildə Azərbaycan ədəbiyyatnın inkişafındakı xidmətlərinə görə ona əməkdar incəsənət xadimi fəxri adı verilir.

### BİZ TÜRKÜSTAN ELLƏRİYİK, QEYRƏT, QÜDRƏT SELLƏRİYİK

Vətəni varlığı qədər sevən şairin Azərbaycanın hər çayında, çeşməsində səsi, nəfəsi var. Onun hər daşını lələ, mərcana bənzədən şair varlığı kimi sevdiyi vətən uğrunda daim mübarizələrdə çarpışıb. Ötən əsrin 80-ci illərin axırlarında xalq azadlıq hərəkatı genişləndiyi zaman Xəlil Rzanın gur səsi Azərbaycanın bütün regionlarında eşidilirdi. O, bütün varlığı ilə xalq hərəkatına qoşulmuşdu, hər yerdə rus şovinist siyasətini, Dağlıq Qarabağ torpağına təcavüz edən erməni daşnaklarını odlu-alovlu çıxışları ilə ifşa edirdi.

Biz Türküstan elləriyik,
Qeyrət, qüdrət selləriyik.
Daşnakları qovan bizik,
Dar gözləri ovan bizik.
Yetər meydan suladılar,
Yurdumuzu taladılar.

80-ci illərdə Azərbaycanda milli-demokratik hərəkatın başlanması, milli dövlətçiliyin bərpasından sonra türkçülük məfkurəsi ideoloji-mədəni önəm kəsb etmiş və bu, Xəlil Rza Ulutürk yaradıcılığında daha poetik qüvvətlə səslənmişdir. ”Qalx ayağa Azərbaycan”, ”Yaz pasportunda”, ”Boz qurda öygü”, ”Mən günəş ürəkli Xəlil Rzayam” və başqa şeirlərində türkçülük məfkurəsi özünün biruzə verir. Xəlil Rzanın yaradıcılığında ana xətt olaraq türkçülük təbliğ olunur. O, türk dünyasını birliyə səsləyir. Son günlərini yaşayan sovet imperiyası ömrünü uzatmaq üçün 1990-cı ilin yanvarında Azərbaycanın paytaxtı Bakıda dinc əhaliyə vəhşicəsinə divan tutdu. Bu qətliam, soyqırım siyasəti Qorbaçovun və onun əlaltılarının iradəsi ilə icra edilirdi. Bütün dünyanın açıq fikirli adamları bu aksiyanı, bəşər tarixində misli görünməmiş qətliamı lənətlə qarşıladılar. Sovet ordusu tərkibində zirehli tanklarla, hərbi gəmilər və müasir silah növləri ilə yaraqlanıb xüsusi tapşırıqla Bakını gülləbaran edənlərin törətdiyi cinayətlər Xəlil Rzanı sarsıtmışdı. O, bütün qüvvəsi ilə gecə-gündüz dinclik bilmədən, ürəyini məşələ çevirib xalqı düşmənlərə qarşı mübarizəyə səsləyirdi. Xarici ölkə jurnalistlərinə verdiyi müsahibələrdə 20 yanvar hadisələrini, Qorbaçovun və onun əlaltılarının qanlı əməllərini dünya ictimaiyyətinə çatdırmağa çalışırdı.

### MİLLİ POETİK FİKRİ ZƏNGİNLƏŞDİRƏN ŞAİR

1990-cı il yanvarın 26-da Xəlil Rza SSRİ Dövlət Təhlükəsizliyi əməkdaşları tərəfindən həbs edildi. Moskvaya Lefortovo həbsxanasına göndərildi. Aramsız sorğu-sual, ağır ittiham şairin iradəsini qıra bilmir, o, zindanda da mübarizəsini davam etdirirdi. 8 ay 13 gün öz mühitindən təcrid olunmuş şair odlu-alovlu qəlbinin işığında ”Lefortovo gündəliyini”, 200-dən çox, şer, poema və məktubunu qələmə aldı. Bu əsərlər mübariz şairin ictimai-siyasi dünyagörüşünü əks etdirməklə yanaşı, öz siqləti, bədii dəyəri, məzmunu cəhətdən milli poetik fikri zənginləşdirən misilsiz abidədir. ”Lefortovo gündəliyi” şairin qəbul etdiyi Ulutürk təxəllüsünün vəsiqəsidir.

”Mən yenə dönəcəm Azərbaycana” şeirində şair belə yazır:

Burda havam çatmır... hava istərəm,
Xəzər dənizinin özü boydaca.
Burda səmasızam,səma istərəm –
Günəşin aləmə sözü boydaca.
Gecələr bürünüb soyuq yorğana,
Yatmıram, dalıram Azərbaycana!
Nəfəsim kəsilsə... sürtüb üzümü,
Dağından-daşından qüvvət alacam.
Üzülsə qollarım, dişimlə tutub
Uğrunda bir daha qılınc çalacam.
Dağından – daşından qüvvət alacam.

Xəlil Rza 1990-cı il yanvarın 29-dək - 40 illik ədəbi-bədii yaradıcılığı dövründə öz əsərlərini ”Xəlil Xəlilov”, ”Xəlil Xəlilbəyli”, ”Xəlil Odsevər”, ”Xəlil Rza” təxəllüsləri ilə çap etdirmişdi. ”Xəlil Rza Ulutürk” təxəllüsü isə şairin keçdiyi mübarizə yolunun, ədəbi-mənəvi axtarışlarının məntiqi nəticəsi idi. Şair ömrünün son illərində dünyasını dəyişən günədək yazdığı şerlərdə və nəşr etdirdiyi kitablarda Xəlil Rza Ulutürk imzasını qoymuşdur. Şairin vəfatından sonra, onun ömür-gün yoldaşı, Firəngiz xanım Xəlil Rzanın şerlərini, gündəliklərini və tərcümələrini sahmana salıb sanballı kitab halında Xəlil Rza Ulutürk imzası ilə nəşr etdirmişdir.

Zaman keçsə də, Xəlil Rza Ulutürk yaddaşlardan heç vaxt silinməyəcək. Poeziya pərəstişkarları onun təzətər gül-çiçəyə qərq olmuş möhtəşəm ”canlı” heykəlini həmişə ziyarət edəcək, xatirəsini əziz tutacaqlar. Bu poeziya Azərbaycana bağlı olan nümunədir. Azərbaycanın hər qarışı Xəlil Rza yaradıcılığında ehtiva olunur. Bu şairin vətən boyda ali bir sevgisindən irəli gəlir. Vətəni sevən odlu-alovlu şair onun üçün təhlükə törədəcək yerlərdə belə haqq səsini boğa bilmədi. Buna daxilindən gələn hissləri, mənliyi, müdrikliyi imkan vermədə. Ən çətin anlarda belə vətən sevgisi yüksəkdə dayandı. Odur ki, bu günümüzdə, gələcəyimizdə imzasını əbədiləşdirdi, məzmunlu və alov püskürən şeirlərini, Azərbaycandan qaynaqlanan poeziyasının klassiklərin əsərləri sırasına daxil etdi.

***Zümrüd BAYRAMOVA***

# Yevgeni Mixaylov: Azərbaycanın beynəlxalq nüfuzu güclüdür və Qərbin psevdotənqidinə əhəmiyyət vermir

***“Azərbaycan çoxdan müstəsna regional dövlət hüdudlarından kənara çıxıb və son illər təkcə Cənubi Qafqazda deyil, onun hüdudlarından kənarda da gündəmi diktə edir”***




Cənubi Qafqaz Ölkələrinin Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov “Moskva-B»ku” portalına müsahibəsində Azərbaycanın əsas dünya hadisələrindən birini keçirməsi ilə bağlı Qərbin son təxribat törətmək cəhdlərini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Yevgeni Aleksandroviç, Azərbaycan, Bakının noyabrda ev sahibliyi edəcəyi BMT-nin COP29 iqlim**



MÜSAHİBƏ

**konfransı ərəfəsində Qərb ölkələrinin bu konfransı pozmaq cəhdlərinə və tənqidlərinə daha çox məruz qalır. Üstəlik, səbəb çox “maraqlıdır”. Azərbaycanın ötən ilin sentyabrında separatçı Qarabağa qarşı “təcavüz”ü...**

- Hesab edirəm ki, Azərbaycanı bundan sonra onu ləkələməyə çalışanların fikirlərinə qətiyyən əhəmiyyət verməməlidir. Bütövlükdə, Azərbaycan artıq elə bir statusa çatıb ki, Qərb ölkələrinin psevdotənqidi ilə maraqlanmır. Qərb ölkələri üçün isə Azərbaycan Respublikasının tənqidi ənənəvi siyasətdir.

Onilliklər ərzində Qərb həmişə Azərbaycanı tənqid etmək üçün hansısa səbəb tapmağa, onun irimiqyaslı beynəlxalq tədbirlər keçirməsini boykot etməyə çalışıb. Amma bu, Azərbaycanı heç vaxt dayandırmadı və böyük reputasiya xalları qazanmasına mane ola bilmədi. Bu ölkə uzun müddətdir ki, siyasidən tutmuş idmana qədər bütün növ tədbirlərə əla səviyyədə ev sahibliyi etmək nümunəsidir.

Odur ki, bəzi Qərb dövlətlərinin Fransanın, Avropa strukturlarının və ya ABŞ-ın dar mənafeləri naminə növbəti dəfə Azərbaycan haqqında- beynəlxalq səviyyədə tanınmış ərazilərinin qaytarılması məsələsində- Bakıya qarşı “nəsə deməsi” faktı tamamilə fərq etməz, çünki Azərbaycan hər şeyi beynəlxalq qaydalara uyğun etdi.

Üstəlik, Azərbaycanın beynəlxalq aləmdə statusu sıçrayışlarla artır. Həm də təkcə ona görə deyil ki, onun özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirib, əvvəllər işğal olunmuş ərazilərini tamamilə geri qaytarıb, suverenliyini bərpa edib. Amma həm də ona görə ki, o, getdikcə müstəqil siyasət yürüdür. Mən deyərdim ki, Azərbaycan son illər dünyada müxtəlif istiqamətlərdə ədalət uğrunda mübarizə aparır. Dünyanın ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan təkcə bu strukturun sağlamlaşdırılması üçün deyil, həm də dünyada inkişaf etməkdə olan ölkələrin hüquq və mənafelərinin müdafiəsi istiqamətində xeyli işlər görüb. Bunda Bakı və Moskvanın fikirləri oxşardır - dünya daha ədalətli olmalıdır.

Bunun ardınca Azərbaycan neokolonializmlə mübarizə mövzusunu qaldırmağa başladı və hazırda bu istiqaməti fəal şəkildə təbliğ edir.

COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanın əsas ideyalarından biri münaqişə tərəfləri- qlobal Şimal və qlobal Cənub arasında körpülər qurmaqdır. Həmçinin, Azərbaycan COP29 iqlim dəyişikliyi ilə mübarizədə kollektiv irəliləyişə dair iddialı məqsəd qoyur. Azərbaycan əvvəllər bağlanmış əsas iqlim sənədlərinin, o cümlədən əsas sənədlərin- Paris İqlim Sazişinin auditini aparmaq və inkişaf etməkdə olan ölkələr də daxil olmaqla, iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirmə sxemlərini hazırlamaq niyyətindədir.

Azərbaycan da iqlim konfransı zamanı dünyaya münaqişələrin dayandırılmasını təklif edib. Qoşulmama Hərəkatına üzv olan 127 ölkə bu təklifi dəstəkləyib. Bu isə Bakının təşəbbüsünün dünya əksəriyyəti tərəfindən dəstəklənməsi deməkdir.

Yəni, Azərbaycanın öhdəsinə götürdüyü hər şey, bütövlükdə, təkcə milli maraqların reallaşdırılmasına deyil, həm də dünyada vəziyyəti müsbətə doğru dəyişməyə yönəlib. Bu baxımdan demək olar ki, Azərbaycan Respublikası çoxdan müstəsna regional dövlət hüdudlarından kənara çıxıb və son illər təkcə Cənubi Qafqazda deyil, onun hüdudlarından kənarda da gündəmi diktə edir.

**- Ermənistan, bildiyiniz kimi, ötən ilin sonunda sülhpərvər addım olaraq, COP29-un Azərbaycanda keçirilməsinə dəstək verdi. Konfransda Ermənistan nümayəndəsinin iştirak etməsi tamamilə mümkündür. Eyni zamanda, İrəvan hələ də vaxtaşırı Qarabağdakı vəziyyətlə bağlı hansısa “Azərbaycan təcavüzü” elan edir... Bu, bir-birinə necə uyğun gəlir?**

- İnanıram ki, İrəvanın Azərbaycana qarşı sülhsevər yanaşmanı təbliğ etməsinə baxmayaraq, İrəvanın yenə də ikili oyun oynadığı göz qabağındadır. Axı Qərb İrəvanı dəstəkləyir. Əslində bu vəziyyətdə biri olmadan digəri mümkün deyil.

Bundan əlavə, bu gün Ermənistan mətbuatında Azərbaycana belə genişmiqyaslı konfransa ev sahibliyi etmək imkanı verilməsi ilə bağlı tənqidlərin şahidi oluruq. Amma Azərbaycan üçün- necə deyərlər: it hürə, karvan keçər. Tədbirin Azərbaycanda baş tutacağına görə əhəmiyyətinin bir növ azalması üçün Ermənistan və onu dəstəkləyən dövlətlər heç bir ciddi rol oynamayacaq. Şübhə yoxdur ki, Azərbaycan COP29-a uğurla ev sahibliyi edəcək və bu konfransda Azərbaycanın, eləcə də kollektiv qlobal çoxluğun təklif etdiyi qərarlar iqlim gündəmində və bu istiqamətdə konkret qərarların hərəkətini və icrasını müəyyən edən mühüm mərhələlərə çevriləcək.

Əgər Azərbaycanın statusu ilə bağlı anlayış olmasaydı, Bakıya belə əhəmiyyətli tədbirə ev sahibliyi etmək imkanı verilməzdi.

Beynəlxalq ictimaiyyətin bir çox üzvləri Azərbaycanın bir oyunçu kimi nüfuzunun necə gücləndiyini və imkanlarının necə artdığını görür. Azərbaycan enerji ehtiyatlarının mühüm tədarükçüsüdür. Anlamaq lazımdır ki, əgər bir ölkənin düşməni yoxdursa, deməli, zəifdir. Əgər Azərbaycanın beynəlxalq aləmdə güclənməsinə reaksiya verilirsə, deməli, ona hörmət edirlər, qorxurlar. Hansısa Qərb ölkəsinin nümayəndələrinin gəlməməsi Azərbaycana təsir etməyəcək. Lakin bu ölkələrin qlobal gündəliyin müzakirələrində iştirakdan imtina etməsi başqa bir faktdır. Onlar burnundan o tərəfi görə bilmirlər. Onlara fikir verilməməlidir. İlham Əliyev hər kəsin hesablaşmalı olduğu siyasətçi səviyyəsinə çatıb. Azərbaycan Prezidentinin gördüyü işlər yeni formalaşmaqda olan ədalətli dünya nizamının paradiqmasına uyğundur.

***Tərcümə - Elçin Bayramlı***



Mətanət Məmmədova

## Qadınları xoşbəxt edə bilsəniz...

***Qadını xoşbəxt etmək hər kəsin işi deyil. Hər kəs bunun mahiyyətini belə anlamır. Anlamır ki, qadın xoşbəxtdirsə, o, işıq saçacaq. Bu işığın istisində bütün ailə isinəcək. Bu işığın nurunda bütün ailə üzvlərinin üzü güləcək.***

Bəzilərinə görə qadının xoşbəxt olması nə deməkdir, bu barədə anlayışı belə yoxdur. Belələrinə görə qadın sadəcə həyat yoldaşıdır, anadır, evin qulluqçusudur. Belə insanlar hesab edir ki, işləyir, qazanır, evə çörək gətirirsə, qadını xoşbəxt edir. Vəssalam.

Lakin qadın xoşbəxtliyi tamamilə başqa bir məsələdir. Anlayanlar bilir ki, qadın bir çiçəkdir, o, özünü xoşbəxt hiss etmədiyi andan solmağa başlayır. Qadın bir işıqdır, o özünü xoşbəxt hiss etmədiyi an bu işıq nurunu itirib avazımağa başlayır. O, həyat yoldaşı, ana olaraq qalır, bəli, xoşbəxt olmayanda da qalır. Lakin qadın olaraq qala bilmir.

Çünki qadın bir həyatdır. O, sevildikcə, dəyərini hiss etdikcə, əzizləndikcə, bu həyat rəngarəng olur. O, özünü xoşbəxt hiss etmədisə, bu həyat sadəcə ağ və qara rənglərdən ibarət olur. Sönməyə, qaranlıqlaşmağa başlayır.

Elə buna görə də dünyada qadını xoşbəxt etməkdən məsuliyyətli iş yoxdur. Bu, bəziləri üçün çox çətin, bəziləri üçünsə asan bir məsələdir. Asandır, ona görə ki, qadını xoşbəxt etmək istəyən şəxs onun dəyərini bilir. Bilir ki, qadın xoşbəxtdirsə, o da, ailəsi də xoşbəxtdir. Çətindir, ona görə ki, çoxları bunu bacarmır. Öyrənmək də istəmir ki, qadını xoşbəxt edə bilmirsə, həyat onun üzünə gülməyəcək.

Bu dünya nə qəribədir, deyilmi? Maraqlı adamlarla doludur. Hər şeyi dərindən anlayan, anlamaq barədə kiçik bir istəyi olmayan adamlarla. Məsələn, qadınına bir dəfə ürəkdən “səni sevirəm” deməyənlərlə. Ömründə bir dəfə qadınının əməyinə dəyər verməyənlərlə, nə edirsə, “borcundur, vəzifəndir” deyənlərlə... Bu dünya qadınına həyatında bir çiçək almayan insanlarla doludur. Ona yalnız uşaqlarının anası kimi baxanlarla, evinin təmizliyini həyata keçirən kimi görənlərlə. Qadın nədir, öz fikrini bildirdi nədir, düşünənlərlə...

Belə olan halda qadın necə xoşbəxt ola bilər? Əsla ola bilməyəcək. Sadəcə uşaqlarının xətrinə yaşadığı həyata boyun əyəcək. O, qadın olmayacaq heç vaxt. Ana olacaq, həyat yoldaşı, hansısa bir peşə sahibi olacaq. Bəlkə də yüzlərlə qadın yetişdirəcək. Ana, həyat yoldaşı yetişdirəcək. Lakin özü qadınlığın gözəlliyini duya bilməyəcək.

Lakin bu maraqlı dünyamızda qadınların dəyərini bilənlər də az deyil. Bunu da etiraf edək ki, ədalət bizi qınamasın. Qadını tək ana, həyat yoldaşı kimi deyil, qadın kimi görənlər var. Onun analığına, həyat yoldaşı kimi vəzifəsinə, sənətinə, peşəsinə sayğı ilə yanaşan kişilər var. Onu əsla ev işlərini həyata keçirən varlıq kimi görməyib bütün bu işlərdə ona kömək edən kişilər var. Özü istəmədiyi təqdirdə işləməsini problem etməyən, hələ yeri gələndə ona işləməsi üçün yol açan, evdə darıxacağından, baxımsız olacağından narahat olan kişilər var.

Qadını bir gül bilib ona tez-tez özü kimi ətirli, zərif güllər hədiyyə edənlər var. Hər bir məsələdə qadını ilə məsləhətləşib ortaq qərara gələn kişilər var.

Bəli, bax, belə olanda, qadın xoşbəxt olur. Bu zaman analığın, həyat yoldaşı olmağın çətinliyi də ona asan gəlir. Çünki arada bir sevgi var. Bu sevgi o sevgidir ki, dünyanı xilas edib. Belə sevgilər təbii ki, minlərlə ailəni, qadını da xilas edir.

Bu yazını yazmaq ilhamını 18 oktyabrdan aldım. Axı həmin gün Ümumdünya qadın xoşbəxtliyi günüdür. Bu gün özündə çox mənaları ehtiva edir. Odur ki, bu günün mahiyyətini dərk edək. Qadınları sevgisiz, sayğısız buraxmayaq. Onlar sevilməyə, məhəbbətə, nəvazişə layiqdirlər.

Bir sözlə, o varlıq ki, evlərdə çıraq, isti nəfəs, təbəssümdürsə, onu xoşbəxt edin ki, dünyamız işıqlı, isti, üzümüz təbəssümlü olsun. Çünki dünyamız qadındır. Qadınları xoşbəxt edə bilsəniz, gör nələri əldə etmiş olarsınız...

# Əgər yeni enerji ehtiyatları aşkarlanmasa...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.*



***Enerji problemi müasir dünyanın ən ciddi problemlərindən biridir və həyatımızın bütün sahələrinə aiddir. Kifayət qədər enerji olmasa həyat dayanır - telefon, televiziya, radio və ya internet kimi informasiya əlaqəsi yoxdur, evlərimizdə məişət avadanlıqları işləmir, işıqlandırma və havalandırma kimi əsas cihazlar işini dayandırır, enerji ilə işləyən ictimai nəqliyyat vasitələri iflic olur. Qısası, enerji olmasa həyat dayanır.***









Neft, təbii qaz və kömür kimi enerji təmin edən təbii ehtiyatların gələcəyi yoxdur, çünki onlar yer üzündə məhdud miqdarda mövcuddur və uzun illərdir istehlak edildiyi üçün qaynaqlar tükənmək üzrədir. British Petrolium (BP) tərəfindən dərc edilən hesabatlarda qalıq enerji ehtiyatlarının ömrü neft üçün 54 il, təbii qaz üçün 64 il, kömür üçün 112 il olaraq ifadə edilib. Son iki əsrdə qalıq yanacaqlar istehsal texnologiyalarının inkişafı və ucuzluğu səbəbindən geniş istifadə edilib. Neft və kömürün üstünlüyünə əsaslanan enerji əsri 1973-cü ildə yaranan neft böhranı nəticəsində bir növ çöküş yaşadı. Dünya təbii ehtiyatların tükənə biləcəyi ehtimalı üzərində durub düşünməli oldu. Bərpaolunan enerjinin əldə edilməsi imkanları meydana çıxandan sonra təbii ehtiyatlara qənaət məsələləri gündəmə gəldi.

Dünyanın müxtəlif yerlərində insan həyatını təhlükə altına atan fəlakətlərin, məsələn, daşqınlar, sellər, yanğınlar təbii iqlim tarazlığının pozulmasının nəticəsidir. İqlim mütəxəssisləri müəyyən edirlər ki, qlobal istiləşmə nəticəsində havada rütubət və sıxlığın artması, habelə arktik və tropik bölgələr arasında temperatur fərqinin yaranması fırtına və küləklərin çoxalmasına səbəb olur.

Bərpaolunan enerji mənbələrindən istifadə bütün bəşəriyyətin gələcəyini təmin etmək üçün həyati əhəmiyyət kəsb edir. Çünki təbii yanacaqlardan istifadə artdıqca atmosferdə karbon qazının intensiv toplanması da çoxalır, bu da öz növbəsində qlobal istiləşməyə səbəb olur. Nəticədə temperaturun artması dünya iqliminin dəyişməsinə, qütb buzlaqlarının əriməsinə, dəniz səviyyəsinin qalxmasına və bir çox məhsuldar kənd təsərrüfatı sahələrinin su altında qalmasına, dolayısı ilə dünyada aclıq, qıtlıq kimi problemlərə səbəb olur. Qlobal temperatur artımının qarşısını almaq üçün ilk şərt, təbii ehtiyatların istifadəsini azaltmaq və enerji infrastrukturunu bərpaolunan enerjilərdən istifadəyə uyğunlaşdırmaqdır.

Qalıq yanacaqların məhdud miqdarı və bir gün tükənməsi təhlükəsi, alternativ enerjidən istifadənin zəruriliyini qaçılmaz etsə də, daha bir ciddi problem var ki, o da insan fəaliyyətinin atmosferə vurduğu ziyandır. Qalıq yanacaqlar bir gün tükənəcək və enerji ehtiyacları başqa mənbələrlə əvəz ediləcək, lakin yaşayış mühitimiz olan atmosferə vurduğumuz zərəri bərpa etmək mümkün olmayacaq. istehlak Məsələn, ozon təbəqəsinin deşilməsinin heç bir əvəzi yoxdur.

Bərpaolunmayan enerjilərə alternativ olaraq göstərilən bərpaolunan enerji mənbələri və nüvə enerjisidir. Bununla belə, bərpa olunan enerji mənbələrində hələ tam həllini tapmayan iqtisadi rəqabət qabiliyyəti kimi bəzi problemlər var. Həmçinin, nüvə tullantılarının utilizasiyası ilə bağlı da problemlər var. O cümlədən, yeni texnologiyaların tətbiq edilməsində yetərli qədər bazar azadlığı və beyin ehtiyatı da yoxdur.

2030-2050-ci ilə qədər bərpa olunmayan enerjilərin bərpa olunan enerji mənbələri ilə əvəz etmək planlarının 50 faizlik bir hədəfə çatdırmaq üçün yerli hökumətlərin və qeyri-hökumət təşkilatlarının əməkdaşlığı mütləqdir. Eyni zamanda, insanların bu istiqamətdə məlumatlandırılması, həyat tərzlərini yeni enerji qaynaqlarına uyğun dəyişdirmələri, enerjiyə maksimum qənaət barədə maarifləndirmə işləri aparılmalıdır. Əks halda, bərpaolunmayan enerji bütün dünyanın tələbatını qarşılaya bilməz. ABŞ Milli Bioenerji Mərkəzinin direktoru Maykl Paçeko bərpa olunan enerji mənbələrindən istifadə haqqında danışarkən belə bir fikir söyləmişdi: “Əgər bərpaolunmayan ehtiyatlardan istifadəni dayandırsaq, biokütlə, külək və günəşdən əldə edə biləcəyimiz enerjinin, enerji tələbatımızı ödəyib-ödəyə bilməyəcəyi barədə suallar var”.

Enerji istehlakı günü-gündən artır, əvvəlcə onu minimuma endirməliyik. Qalıq yanacaqlardan asılılıq həm onların planetimizə vurduğu ziyana görə, həm də tükənmə təhlükəsinə görə azalmalıdır. Ona görə də insanlar köhnə vərdişlərindən əl çəkməli, yeni həyat tərzinə uyğunlaşmalıdır. Qalıq yanacaqlara alternativ tapmaq, tətbiq etmək üçün çox vaxtımız qalmayıb. ABŞ Energetika Nazirliyinin hesablamalarına görə, inkişaf etməkdə olan ölkələrdə və xüsusilə Çində enerji tələbatının artımı sürətlə davam edir. Bu tələbatı nəzərə alaraq, dünyanın enerji ehtiyacını ödəmək üçün 2005-2025-ci illər arasında ümumi neft hasilatı 50% artırılmalı idi. “Əgər neft şirkətləri tərəfindən böyük və yeni neft ehtiyatları aşkar edilməsə, qlobal neft sənayesi çox güman ki, tələb olunan əlavə hasilatı istehsal edə bilməyəcək” deyə bir proqnoz da verilmişdi. Aralıq dənizində aşkarlanan böyük qaz yataqlarının istehsal xərclərinin də rentabelli olub-olmaması məsələsi də mübahisəlidir.

2030-2050-ci illərdə bərpaolunmayan enerjilərin 50%-nin bərpaolunan enerji mənbələri ilə əvəzlənməsi planları ilə bağlı bütün ölkələrdə fəaliyyət planı hazırlanıb. Bəzi ölkələrdə artıq ilkin işlər görülüb, enerji panelləri vasitəsi ilə günəş enerjisi istehsal edilir. Lakin əldə edilən enerjinin miqdarı hələ ki, tələb olunan miqdarı ödəmir. Beynəlxalq Bərpa olunan Enerji Agentliyinin proqnozlarına görə, alternativ enerji mənbələrinə keçid karbon qazı emissiyasının azaldılması ilə yanaşı, sosial-iqtisadi inkişafa təkan verəcək. Qlobal iqlim dəyişikliyinin qarşısının alınması üçün 2050-ci ildən sonrakı dövrdə karbon qazı emissiyasının minimum həddə endirilməsi nəzərdə tutulur. Hidrogen və sintetik yanacaqlar, birbaşa elektrikləşdirmə, bioyanacaqlar innovativ biznes modellərinə və bu sahədə struktur dəyişikliyinə ciddi təsir göstərəcək.

***Lalə Mehralı***

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Arıqlamaq üçün bal şəkərə alternativ sayıla bilərmi?



*Bal arıqlamaq üçün şəkərə təhlükəsiz alternativ hesab edilmir, çünki o, yüksək karbohidratlı qidadır.*

SİA-nın əldə etdiyi məlumata görə, bu barədə qastroenteroloq İrina Qubanova danışıb.

Təbii bir məhsul olduğu üçün şəkər əvəzinə bal yemək daha yaxşı olduğuna dair bir fikir var. Arıqlayan insanların istifadə etməsi tövsiyə olunur, guya bu yolla artıq çəkidən qurtula və şirniyyat çatışmazlığından əziyyət çəkməyəcəklər.

**Lakin iddialara görə, ekspert mifi dağıdır?**

Bal yüksək karbohidratlı və çox yüksək kalorili məhsuldur. Tərkibində böyük miqdarda fruktoza var - 33 ilə 42 faiz arasında. 21 qram bal üçün isə 64 kilokalori və təxminən 17 qram şəkər var.

Balın tez-tez istehlakı, əksinə, artıq bədən çəkisinin inkişafına səbəb ola bilər. Bu da öz növbəsində ürək-damar xəstəlikləri, alkoqolsuz qaraciyər yağlanması və digər problemlər riskini artırır.

Bundan əlavə, bal qanda qlükoza səviyyəsinin kəskin artmasına kömək edən çox yüksək glisemik indeksə malikdir. Tez-tez bal qəbul etmək, əksinə, güclü aclıq hissi yaranır, buna görə də insan daha çox yeyir.

*Nazlı Almuradova*

# “Google” Azərbaycanı təbrik etdi




**Məşhur ”Google” axtarış sistemi Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə bayrağımızın rənglərində ”doodle” hazırlayıb.**

Milli.Az xəbər verir ki, Azərbaycan bayrağını klikləsdikdə ”Azərbaycanda Müstəqilliyin Bərpası Günü” ilə bağlı informasiyaların yer aldığı saytlara və xəbər agentliklərinin səhifələrinə keçid edilir.

Qeyd edək ki, bu gün Azərbaycanın Müstəqilliyinin Bərpası Günüdür.

# Stres, əsəb bağırsaq xərçəngi yaradır



Çinin Siçuyan universitetinin alimləri xroniki stresin bağırsaq xərçəngində rolunu sübut ediblər.

Milli.Az medicina.az-a istinadən xəbər verir ki, Siçanlar üzərində aparılan eksperimentdə bağırsağın stresə reaksiyası izlənilib.

Belə ki, güclü stresə məruz qaldıqdan sonra onların bağırsaq mikrobiomu və bakteriyaların durumu öyrənilib.

Məlum olub ki, xroniki stress bağırsaqda çox sayda faydalı bakteriyaları, xüsusən Lactobacillus kəskin azaldır, nəticədə bağırsaqlarda polip, şişlərin sürətli inkişafını artırır.

Çünki Lactobacilluslar orqanizmin antixərçəng cavabını təmin edir.

Əlavə sübutlar üçün alimlər siçanlaa laktobakteriyalı, probiotikli yem verib.

Müşahidələr göstərib ki, bu zaman şişlərin və metastazların inkişafı ləngiyib.

Alimlərin sözlərinə görə, bu araşdırma kolorektal xərçəngin profilaktikasında yeni imkanlar açacaq.

Lactobacillus xərçəng əleyhinə təsiri araşdırılmalıdır.

# Güclü analitik zəkaya malik 4 bürc



***Bəzi bürclər problemlərin həlli üçün məntiq və faktlara əsaslanan yanaşmalar sərgiləyir və hətta mürəkkəb vəziyyətlərdə də rasional həllər çıxara bilirlər. Bəs düşünməkdən əl çəkə bilməyən insanlar hansı bürclərdəndir?***

Qız bürcü təfərrüata böyük diqqəti və mükəmməllikçi təbiəti ilə tanınır. Vəziyyəti qiymətləndirərkən, o, bütün mümkün detalları araşdırır və praktik həllər istehsal edir. Qızlar problemləri həll etməkdə yüksək bacarıqlıdırlar və çox vaxt çətin tapşırıqların öhdəsindən uğurla gəlirlər. Onlar üçün həyatın mərkəzində məntiq və nizam durur.

Oğlaq strateji düşünmə qabiliyyəti ilə tanınır. Həyatın bütün sahələrində uğur qazanmağı hədəfləyən Oğlaqlar hadisələri uzunmüddətli nəticələri ilə təhlil edir. Qərar qəbul edərkən emosional faktorlara deyil, məntiqə və faktlara əsaslanan bir yanaşma tətbiq edirlər. Oğlaqlar problemlərin kök səbəbini tapmaqda və həll yönümlü strategiyalar hazırlamaqda mahirdirlər. Onların səbirli və nizam-intizamlı təbiəti onlara analitik düşüncələrini praktikada tətbiq etməyi asanlaşdırır.

Əkizlər bürcü zəkası və biliyə marağı ilə tanınır. Davamlı olaraq yeni şeylər öyrənməyə çalışan Əkizlər zehni cəhətdən çox sürətlidir və hadisələri fərqli baxış bucağından araşdırmaq qabiliyyətinə malikdir. Çoxyönlü düşünmə qabiliyyətləri sayəsində mürəkkəb məsələləri belə asanlıqla təhlil edə bilirlər. Əkizlər bürcü insanları düşünmə qabiliyyətlərini sosial mühitlərində istifadə edir və tez-tez təsirli ideyalar irəli sürürlər.

Dolça bürcü yenilikçi və irəliyə doğru düşünən xarakteri ilə analitik təfəkkürün zirvəsindədir. İdeya yaratmaqda, problemlərə həll yollarını tapmaqda və hadisələri müxtəlif rakurslardan qiymətləndirməkdə çox uğurlu olurlar. Dolçalar cəmiyyətin ənənəvi nümunələrində ilişib qalmadan məntiqli və orijinal düşüncələrlə hərəkət edirlər. Onlar hadisələri qiymətləndirərkən bütün mücərrəd və konkret məlumatlardan istifadə edərək gələcək üçün strateji addımlar atmağı xoşlayırlar. (teleqraf.com)

# BAŞSAĞLIĞI

Məmmədhəsən Məmmədov, Əliş Hüseynov, Mövəcət Həbibov, Yavər Nuriyev Suraxanı Rayonlararası Dezinfeksiya Xidməti bölməsinin rəisi Yusif Rəhimova qardaşı

Elbrus Rəhimovun

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700